QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 099 (5330) 6 **iyun** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**


# Sənayenin inkişafı ölkənin iqtisadi dayağıdır

*İlham Əliyev: "Bu il sənaye potensialının inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır"*



Səh 2


**Heydər Əliyev Fondu uşaqları növbəti dəfə sevindirdi**



4

**Riyazi dəqiqlikdə siyasətçi**



5

**Novruz Məmmədov: "Azərbaycan-ABŞ münasibətlərində yeni səhifənin açılması üçün geniş imkanlar var"**



4

**Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin rəisi təyin edilib**



4

**Azərbaycan növbəti dəfə Qəbələ Beynəlxalq Musiqi Festivalına ev sahibliyi edəcək**



9

**KİVDF Müşahidə Şurasının üzvləri təyin edildi**




4

12

**Litva Rusiya ilə sərhəddə hasar tikir!**




11

**Turizmin inkişafına böyük təkan olan məkanlarımız erməni işğalı altındadır**



16

**Meneceri açıqladı: "Arda Turan 2020-ci ilədək "Barselona"dır"**



# Sənayenin inkişafı ölkənin iqtisadi dayağıdır

## *İlham Əliyev: "Bu il sənaye potensialının inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır"*



***Məlum olduğu kimi, 2017-ci ilin əvvəlindən ölkəmizin iqtisadi və sosial həyatında dinamik inkişafı davam etmiş, istehsal və xidmət sahələrində qazanılan uğurların sayı bir qədər də artmışdır. Bir sıra istehsal sahələrində məhsul buraxılışının həcminin artması, investisiya fəallığının daha da güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi ölkənin iqtisadi dayaqlarını xeyli möhkəmləndirmişdir.***

Qeyd edək ki, aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda, ötən dövr ərzində, ölkə iqtisadiyyatında əldə olunmuş nəticələr geniş müzakirə edilib. İqtisadiyyatımızın vəziyyətini xarakterizə edən göstəricilər bir daha təsdiqlədi ki, bu gün Azərbaycan yenidən sürətli inkişaf yoluna qədəm qoyub. Reallığı təsdiq edən faktlara diqqət yetirək. Ötən ilin ilk üç ayı ilə müqaisədə qeyri-neft sektoru 2,4 faiz, o cümlədən, qeyri-neft sənayesi 2 faiz, kənd təsərrüfatı 3,5 faiz, ticarət dövriyyəsi 15 faiz, ixrac 50 faiz, qeyri-neft ixracı 10 faiz artıb, idxal isə 17 faiz azalıb. Bütün bu uğurlar isə, ölkə Prezidentinin apardığı islahatların nə qədər düzgün və səmərəli olduğunun bir daha təsdiqidir. Sözügedən müşavirədə Prezident İlham Əliyev ilk üç ayda əldə olunan nailiyyətlərdən danışarkən, bildirdi ki, birinci rübün nəticələri göstərir ki, Azərbaycan bütün sahələrdə çox sürətlə inkişaf edib.

Digər bir məqam isə, dünyada baş verən iqtisadi tənəzzülün ölkəmizdən də yan keçmədiyi bir dönəmdə cari ilin başlanğıcında uğurlu nailiyyət əldə olundu. Eyni zamanda, ölkədə azad sahibkarlığın sürətli inkişafını təmin edən onlarca qərar qəbul edildi. Neftin qiymətlərinin kəskin azaldığı bir dövrdə, neft ölkəsi olaraq, real sektorun inkişafı istiqamətində atılan belə qətiyyətli addımlar beynəlxalq maliyyə qurumlarının və digər reytinq agentliklərinin diqqətindən yayınmadı. Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi mötəbər maliyyə institutlarının rəhbərlikləri tərəfindən Azərbaycan hökumətinin apardığı islahatlar yüksək qiymətləndirildi və onlar bu işdə bizə daim dəstək verməyə hazır olduqlarını bəyan etdilər.

## Qeyri-neft sənayesinin inkişafı istiqamətində reallaşacaq layihələr

Bütün deyilənlərlə yanaşı, vurğulamaq lazımdır ki, bu gün Azərbaycan hökuməti ölkədə qeyri-neft sənayesinin inkişafı istiqamətində çox ciddi layihələrin reallaşdırılmasına start verib. Neft-kimya sənayesi məhsullarının istehsalının və ixracının əsaslı şəkildə genişləndirilməsini nəzərdə tutan bu layihələr yaxın gələcəkdə ölkəyə daha çox valyuta axınını təmin edəcək.

Cari ildə Bakı - Tbilisi - Qars dəmir yolunun, Şimal - Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi, Ələt Beynəlxalq Ticarət Limanında tamamlama işlərinin başa çatdırılması Azərbaycanı regionun ən böyük tranzit yükdaşımalar ölkəsinə çevirəcək və son nəticədə, Azərbaycan üzərindən yüz milyonlarla yükün daşınmasına şərait yaranacaq. Həmçinin, bu da, real faktordur ki, Azərbaycanda turizmin inkişafı istiqamətində hökumətin müəyyən etdiyi strategiya artıq öz bəhrəsini verməkdədir. Bunun əsas səbəbi isə, Qafqaz regionunda ictimai-siyasi sabitlik məkanına çevrilən ölkəmiz son zamanlar xarici turistlər üçün daha cəlbedici olub. Bu ilin birinci rübündə ölkəyə turist axını 25 faiz artıb. İndi bu sahədə yaxın hədəfimiz ölkəyə gələn turistlərin sayını 8-10 milyon nəfərə çatdırmaqdan ibarət olmalıdır.

Ölkə Prezidnti İlham Əliyevin dediyi kimi: "Azərbaycan öz sənaye potensialını inkişaf etdirir və sənayeləşmə siyasəti uğurla həyata keçirilir".

Beləliklə, bütün təhlillər göstərir ki, Azərbaycanda sənayenin inkişafı üçün hələ çox böyük perspektivlər qalmaqdadır və ölkə başçısının qəbul etdiyi müvafiq proqram və qərarlarla bu perspektivlər gerçəkləşəcək.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev İsveç Kralı XVI Karl Qustava təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "İsveç Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim sülh və rifah arzulayıram".

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Elçin İsağa oğlu Quliyevin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 600-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 615-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində ali hərbi rütbəli vəzifələrin Siyahısı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində ali hərbi rütbəli vəzifələrin Siyahısı" təsdiq edilib.

***

Prezident İlham Əliyev "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# “SABAH-ın məzunu” mərasimi keçirilib

***İyunun 4-də Heydər Əliyev Mərkəzində “SABAH-ın məzunu” mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak edib.***

Əvvəlcə Leyla Əliyeva “Mən SABAHAM” adlı sərgi ilə tanış olub. Sərgidə gənclər Leyla Əliyeva ilə öz innovativ ideyalarını bölüşüblər.

SABAH qrupları 2014-2015-ci tədris ilində 34 ixtisas üzrə 7 dövlət ali təhsil müəssisəsində yaradılıb. Hazırda SABAH qrupları 11 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 46 ixtisas və 2300-dən artıq tələbəni əhatə edir. 2016-2017-ci tədris ili üzrə SABAH qruplarının ilk məzunlarının sayı 722 nəfərdir.

SABAH tələbələrinin tədrisdənkənar fəaliyyətinin səmərəliliyinə şərait yaratmaq məqsədilə təşkil olunan fəaliyyətlər çərçivəsində “SABAH-ın Könüllüsü” layihəsi həyata keçirilib.

SABAH qruplarının professor-müəllim heyəti, ümumilikdə, 650 nəfərə yaxın olmaqla, ali təhsil müəssisələrinin seçilmiş müəllimləri, Kanada və İngiltərədən dəvət olunmuş dil daşıyıcıları, həmçinin Azərbaycandakı yerli və xarici şirkətlərdə çalışan peşəkarlardan təşkil edilib. “SABAH-ın məzunu” mərasimi Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başladı. Sonra SABAH qrupları ilə bağlı videoçarx nümayiş olundu.



Tədbirdə təhsil naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, xanım Mehriban Əliyevanın SABAH-ın məzunlarına ünvanladığı təbrik məktubunu oxudu. Məktubda deyilir ki, SABAH layihəsi Prezident İlham Əliyevin 2013-cü ildə təsdiq etdiyi “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın icrası çərçivəsində həyata keçirilən mühüm təşəbbüslərdən biridir.

Məktubda SABAH-ın ilk məzunlarına uğurlar arzulayan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva ölkəmizin sürətlə qloballaşan dünyaya inteqrasiyasında təhsilli gənclərin üzərinə böyük missiya düşdüyünü qeyd edib. SABAH könüllülərinin ölkəmizdə keçirilən irimiqyaslı beynəlxalq tədbirlərdəki roluna da toxunan Birinci vitse prezident könüllülüyün, yardımsevərliyin vacib vətəndaş keyfiyyətləri olduğunu vurğulayıb. Daha sonra SABAH-ın məzunları - Bakı Dövlət Universitetinin tələbəsi Günay İmanzadə və Azərbaycan Texniki Universitetinin tələbəsi Şahin Xəlilov SABAH qruplarında peşəkar müəllimlərdən aldıqları təhsildən danışıb, SABAH-ın yaratdığı imkanlar, qazandıqları bilik və təcrübənin gələcək karyeralarında mühüm rol oynayacağını bildiriblər.

Təhsil naziri Mikayıl Cabbarov tədbirdə çıxış edərək SABAH qruplarının ilk məzun mərasiminin məhz ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan mərkəzdə keçirilməsinin rəmzi məna daşıdığını bildirdi. Nazir vurğuladı ki, savadlı, bacarıqlı və hazırlıqlı gənclər ölkəmizin gələcəyini təmsil edirlər. Məhz bunun üçün də təhsil prosesində daha zəngin və tələbkar akademik proqram tətbiq olunub. Mikayıl Cabbarov bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Təhsil naziri Birinci vitse-prezidentin müraciətinin təhsilə və gənclərə diqqət və qayğısının daha bir təzahürü olduğunu qeyd etdi.

SABAH-ın əsas məqsədinin ali təhsildə keyfiyyətin yüksəldilməsi, yeni və fərqli mühitin yaradılması, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi olduğunu deyən M.Cabbarov bu qrupların gənclər üçün yaratdığı imkanlardan danışdı. Çıxışının sonunda SABAH-ın məzunlarını təbrik edən təhsil naziri onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı. Mərasimin sonunda SABAH qruplarının himni səsləndirildi.











səs

www.sesqazeti.az

facebook

Ses Media Holding

6 iyun 2017-ci il

# Heydər Əliyev Fondu uşaqları növbəti dəfə sevindirdi

***İyunun 4-də sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli respublika xüsusi internat məktəbinin sakinləri IDEA Heyvanlara Qayğı Mərkəzində olublar. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.***



Tədbirdə uşaqlar ev heyvanları üçün yaradılan şəraitlə və IDEA Heyvanlara Qayğı Mərkəzinin fəaliyyəti ilə tanış olublar. Uşaqlar üçün müxtəlif əyləncəli proqramlar və nahar təşkil edilib, Heydər Əliyev Fondu adından onlara hədiyyələr verilib.

IDEA İctimai Birliyinin "Azərbaycan. Ceyranların xilası" sənədli filminin uşaqlar üçün surdotərcümə ilə nümayişi olub. Filmin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət





sərgi təşkil edilib. Tədbirin məqsədi uşaqların maraqlı və əyləncəli gün keçirmələri ilə yanaşı, onlara erkən yaşlarından təbiətimizə, onun sərvətlərinə qayğının, eləcə də ev heyvanlarına rəğbətin və humanist yanaşmanın aşılanmasından ibarətdir.

Qeyd edək ki, gənclərin ekoloji məsələlərə cəlb edilmələri və onların ətraf mühitin mühafizəsinə töhfə vermələri, ekoloji problemlərlə mübarizəyə qoşulmaları naminə irimiqyaslı layihələr həyata keçirən IDEA İctimai Birliyi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-də fəaliyyətə başlayıb.

# Novruz Məmmədov: "Azərbaycan-ABŞ münasibətlərində yeni səhifənin açılması üçün geniş imkanlar var"



Beynəlxalq aləmdə böyük gərginliyin olmasına baxmayaraq, düşünürük ki, Azərbaycan ilə ABŞ arasındakı münasibətlərdə yeni səhifənin açılması üçün geniş imkanlar var. AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə müsahibəsində Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Novruz Məmmədov deyib. Novruz Məmmədov bildirib ki, bunun ən mühüm sübutlarından biri kimi Prezident Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə son iki həftədə ünvanladığı iki məktubu göstərmək olar. Bu məktublarda münasibətlərdə yeni səhifənin açılması üçün nə qədər imkanların olduğu görünür. Bir neçə gün əvvəl Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində Ərəb-İslam-Amerika Sammitinin keçirildiyini xatırladan Prezidentin köməkçisi ABŞ Prezidentinin həmin Sammitdə mühüm nitq söylədiyini bildirib. Qeyd edib ki, Prezident Donald Tramp nitqində ABŞ-ın dünya ölkələri ilə bundan sonrakı əməkdaşlıq prinsiplərini ortaya qoydu. "Biz bu prinsipləri bəyənirik. Neçə illərdir, deyirik ki, münasibətlərdə bu prinsiplər əsas götürülməlidir. Bu prinsiplərə əməl edilsəydi, bugünkü gərginlik də olmazdı, ölkələr arasında dostluq, əməkdaşlıq, tərəfdaşlıq əlaqələri daha uğurla davam edərdi. Düşünürəm ki, belə bir perspektiv var və biz də bu perspektivlərlə bağlı lazımi addımları atırıq", - deyə Novruz Məmmədov bildirib.

# Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin rəisi təyin edilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni Sərəncam imzalayıb. SİA-nın Prezidentin rəsmi saytına istinadən verdiyi məlumata görə, Elçin İsağa oğlu Quliyev Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi təyin edilib.

QEYD: Elçin İsağa oğlu Quliyev 22 sentyabr 1967-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 1974-1982-ci illərdə Sumqayıtda 20 və 23 saylı məktəblərdə orta təhsil almış, 1984-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 1988-ci ildə isə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini bitirmişdir. 1988-ci ildən həqiqi hərbi xidmətdədir. 1988-1992-ci illərdə SSRİ Silahlı Qüvvələrində (Sovet Ordusunun Polşada yerləşən Şimal Qrupunda) müxtəlif zabit vəzifələrində xidmət etmiş, 1992-ci ildə Xudat əlahiddə nəzarət buraxılış məntəqəsinin rəisi, 1996-2001-ci illərdə isə Xudat sərhəd dəstəsinin rəisi vəzifələrində işləmişdir. 27 mart 2001-ci il tarixindən 31 iyul 2002-ci il tarixinədək Azərbaycan Respublikası Milli təhlükəsizlik nazirinin müavini - Sərhəd Qoşunlarının Komandanı vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının Prezidentinin 31 iyul 2002-ci il tarixli 743 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının Komandanı təyin edilmişdir. Azərbaycan Respublikasının Prezidentinin 15 avqust 2001-ci il tarixli 556 nömrəli Fərmanı ilə general-mayor, 17 may 2003-cü il tarixli 869 nömrəli Fərmanı ilə general-leytenant, 15 avqust 2014-cü il tarixli 683 nömrəli Sərəncamı ilə general-polkovnik hərbi rütbəsi verilmişdir.

# KİVDF Müşahidə Şurasının üzvləri təyin edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sənəddə deyilir: Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli 75 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu haqqında Nizamnamə"nin 6.3-cü bəndinə uyğun olaraq qərara alıram:

1. Aşağıdakı şəxslər Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının üzvləri təyin edilsinlər:

Dövlət orqanlarından:

Quliyev Cəmaləddin Həsən oğlu - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin Mətbuat və informasiya orqanları ilə iş sektorunun müdiri

Həsənov Rasim Aydın oğlu - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin mətbu nəşrlər üzrə qrupunun rəhbəri

Hümbətov İntiqam Rəsul oğlu - Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin İctimaiyyətlə əlaqələr və mətbuatla iş sektorunun müdiri

Kütləvi informasiya vasitələrindən:

Həsənov Həsən Zal oğlu - "Xalq qəzeti"nin baş redaktoru

Hüseynov İlqar Məmməd oğlu - "Trend" İnformasiya Agentliyinin baş direktoru

Quliyev Bəhruz Vaqif oğlu - "Səs" qəzetinin baş redaktoru

Jurnalist təşkilatlarından:

Əskərov Ramiz Baxşəli oğlu - Azərbaycan Jurnalistlər Birliyinin baş katibi

Mirzəyev Ayaz Nizami oğlu - "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri

Rüstəmov Əvəz Cahangir oğlu - "Ruh" Jurnalistlərin Müdafiəsi İctimai Birliyinin sədri.

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 3 iyun tarixli 2923 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 661) 1-ci hissəsi ləğv edilsin.

# Bakıda Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əlaqələri ilə bağlı beynəlxalq konfrans keçirilib




İyunun 5-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) təşkilatçılığı ilə "Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əlaqələri: gələcəyə baxış" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Novruz Məmmədov konfransda çıxış edərək Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlıq formatının öz töhfəsini verdiyini, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələrinin bu əməkdaşlığa misal olduğunu bildirib. Prezidentin köməkçisi qeyd edib ki, bu üçtərəfli əlaqələrin böyük perspektivləri var. Novruz Məmmədov bildirib ki, Azərbaycan, Rusiya və İran arasında iki il əvvəl yaradılmış Şimal-Cənub dəhlizi ilə bağlı əməkdaşlıq formatının da böyük gələcəyi var. Bu formatlar milli, iqtisadi, siyasi maraqlar üst-üstə düşdüyü üçün səmərəli olur. Azərbaycan beynəlxalq aləmdə öz mövqeyini qoruyub saxlayır. Türkiyənin NATO-nun üzvü olması, Gürcüstanın Avropa İttifaqı ilə Assosiativ Saziş imzalaması bu əməkdaşlığı inkişaf etdirməyə mane olmur, əksinə, regionda təhlükəsizliyə, sabitliyə, davamlı inkişafa öz töhfəsini verir və digər ölkələrə qarşı deyil.



Prezidentin köməkçisi qeyd edib ki, Cənubi Qafqazın əhəmiyyətli region olduğu məlumdur. Sabitlik, təhlükəsizlik və davamlı inkişaf bu regiona daha çox lazımdır. Üçtərəfli əməkdaşlıq bir regionda yerləşən ölkələr üçün çox vacibdir. Ermənistanın ərazi iddiaları bu ölkəni əməkdaşlıq imkanından məhrum edir. Dünyada bəzi məsələlərlə bağlı bir sıra ölkələrə qarşı sanksiyalar tətbiq olunur. Amma nədənsə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində ədalətli mövqenin ortaya qoyulması çətin olur. Dünyanın indiki vəziyyətə gəlib çıxmasının səbəbi beynəlxalq miqyasda ədalət prinsipinin qorunub saxlanıla bilməməsidir. Beynəlxalq münasibətlərdə ədalət yoxdursa, başqa dəyərlərdən danışmaq normal görünmür.

Türkiyə Xarici İşlər Nazirliyi yanında Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Məsud Özcan bildirib ki, Türkiyə-Azərbaycan-Gürcüstan əməkdaşlıq formatı bu ölkələr arasında siyasi, iqtisadi, ictimai həmrəyliyə təkan verməkdə davam edəcək. Bu formatla yanaşı, Türkiyə, Azərbaycan, İran, Türkmənistan arasındakı əməkdaşlıq formatları da bölgədə təhlükəsizlik və iqtisadi əməkdaşlıq məsələlərini həll etməyə çalışır. Bu formatlarla paralel, akademik və cəmiyyət səviyyəsində də təmaslar gerçəkləşir. Türkiyə həm Azərbaycanın, həm də Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyərək, münaqişələrin beynəlxalq hüquq çərçivəsində həlli üçün hər cür səy göstərir. Rəsmi Ankara bölgədə sülh və təhlükəsizliyin təminatı baxımından beynəlxalq platformada Azərbaycanı və Gürcüstanı dəstəkləməkdə davam edəcək.

Strateji və Beynəlxalq Araşdırmalar üzrə Gürcüstan Fondunun Avropa İttifaqı Araşdırmaları Mərkəzinin direktoru Kaxa Qoqolaşvili deyib ki, Azərbaycan, Gürcüstan və Türkiyə bir-birinə lazım olduqlarını anlayırlar. Əməkdaşlığı gücləndirmək üçün hər üç ölkədə istək var. Ölkələrimiz ortaq siyasi tarixə malikdirlər. Geosiyasi mövqeyimiz də bölgədə sülh və sabitliyi, xalqlarımızın rifahını təmin etmək üçün bizə imkan verir. Əlaqələrimiz yüksək səviyyədədir. Üçtərəfli əməkdaşlıq vacib məsələdir. İlk növbədə, bu, ölkələrin problemlərini müzakirə etməyə imkan verir. Əməkdaşlıq ölkələrimizin və xalqlarımızın maraqlarına əsaslanır. Hər üç ölkə bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Gürcüstan Avropa İttifaqı ilə Assosiativ Saziş imzalayıb. Türkiyənin Avropa İttifaqına üzvlüyü məsələsi müzakirə olunur. Azərbaycan isə Avropa İttifaqı ilə yeni Saziş üzrə danışıqlar aparır. Hər üç ölkə geniş mənada Avropa icmasının bir hissəsidir. Bizim bu sahədə də əməkdaşlığımız vacibdir. Biz Avratlantik inteqrasiyada bir-birimizi dəstəkləyirik. Konfrans sessiyalarla davam edib.

Moderatoru SAM-ın direktor müavini Gülşən Paşayeva olan "Üçtərəfli münasibətlər üçün təhlükəsizlik çağırışları" mövzusunda birinci sessiyada Yaxın Şərq Texniki Universitetinin dosenti Ayça Ərgün Özbolad, SAM-ın xarici siyasət məsələlərinin təhlili şöbəsinin müdiri Cavid Vəliyev, Siyasi, İqtisadi və Sosial Tədqiqatlar Fondunun direktoru Muhiddin Ataman, Strateji və Beynəlxalq Araşdırmalar üzrə Gürcüstan Fondunun baş elmi işçisi Giorgi Badridze üçtərəfli əməkdaşlıqla bağlı mühazirələrlə çıxış edib.

Moderatoru Siyasi, İqtisadi və Sosial Tədqiqatlar Fondunun direktoru Muhiddin Ataman olan "Üçtərəfli münasibətlərin iqtisadi və enerji aspektləri" mövzusunda ikinci sessiyada isə SAM-ın iqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin aparıcı elmi işçisi Gülmirə Rzayeva, Strateji və Beynəlxalq Araşdırmalar üzrə Gürcüstan Fondunun baş elmi işçisi Valeri Çeçelaşvili, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin strateji təhlil və planlaşdırma üzrə meneceri Vüsalə Cəfərova, Strateji və Beynəlxalq Araşdırmalar üzrə Gürcüstan Fondunun Avropa İttifaqı Araşdırmaları Mərkəzinin direktoru Kaxa Qoqolaşvili çıxış ediblər. Tədbir sual-cavab sessiyası ilə başa çatıb.



# Riyazi dəqiqlikdə siyasətçi

## *Zbiqnev Bjezinskinin xatirəsinə*

***Azərbaycanın xarici işlər nazirinin müavini, "ADA" Universitetinin rektoru, səfir Hafiz Paşayev "Riyazi dəqiqlikdə siyasətçi" sərlövhəli məqaləsində ABŞ-ın görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Zbiqnev Bjezinski haqqında xatirələrini oxucularla bölüşür. AZƏRTAC məqaləni təqdim edir.***

***

Azərbaycanın ABŞ-dakı ilk səfiri olmaq mənə on dörd il ərzində Vaşinqtonda çoxsaylı dostlar qazandırdı. Lakin onların arasında Zbiqnev Bjezinskinin yeri xüsusi idi.

Tanışlığımız Azərbaycanın müstəqilliyinin ilk mərhələsində başlamışdır. Sovet İttifaqının süqutu və Berlin Divarının çökməsi həm bölgəmizə, həm də bütün dünyaya tektonik dəyişikliklər gətirmişdir. Siyasətçilər üçün, xüsusilə də Bjezinski kimi uzaqgörən strateq üçün maraqlı dövr idi. O, keçmiş sovet məkanında baş verən hadisələrin nadir gedişini dərinliklə anlayır və onların sürətlə dəyişməsinə baxmayaraq, ortaya dəqiq təhlillər qoya bilirdi.

Bjezinski sabiq sovet respublikalarının müstəqilliyinə birmənalı və qəti şəkildə dəstək verirdi. Onun ehtiraslı və cəsarətli mövqeyi bütün Vaşinqtona məlum idi. Çoxsaylı siyasi müzakirələr və "dəyirmi masa"lar vasitəsilə Bjezinski yeni ölkələrin səfirlərinə yardım əlini uzadırdı. Azərbaycana Bjezinski xüsusi xoş münasibət bəsləyirdi. Onun rəyincə, ölkəmizin bütün bölgə üçün vacib uzlaşdırıcı rolu var idi.

Bakıya səfərləri və Prezident Heydər Əliyevlə söhbətlərini çox yaxşı xatırlayıram: iki nəhəng siyasi xadimin eyni otaqda əyləşib ABŞ-Sovet keçmişini və müasir vəziyyəti müzakirə etməsini müşahidə etmək inanılmaz bir imkan idi. Amerika Prezidenti Bill Klintondan Prezident Heydər Əliyevə Xəzər neftinin dünya bazarlarına daşınmasında məhz Bakı-Tbilisi-Ceyhan ixrac kəmərinə üstünlük verilməsi mesajını gətirən də Bjezinski olmuşdur. O, uzaqgörənliklə anlayırdı ki, bu vacib kəmər layihəsi bütün bölgənin siyasi xəritəsini dəyişəcək və Azərbaycan da daxil olmaqla, bölgə dövlətlərinin müstəqilliyini möhürləyəcək. Onilliklər sonra nəticə gətirən qərarların necə verilməsini o, yaxşı bilirdi.

Səfərlər zamanı Bjezinski təkcə siyasətçilərlə görüşməklə kifayətlənmirdi. Yadımdadır, qaçqın düşərgəsinə getməyi xahiş etmişdi. Azərbaycanın bölgələrində çadırlarda məskunlaşan yüzlərlə qadın və uşaqları görmək ona ürəkağrıdıcı dərəcədə təsir etmişdi. Elə təsirlənmişdi ki, ziyarətdən sonra yerli icra başçısının qonaqpərvərliklə verdiyi nahara qatılmaqdan da qəti imtina etmişdi. Daha bir səfərində onu yerli ziyalılarla görüşdürməyi xahiş etmişdi və mən o zaman tanınmış yazıçılarımız və alimlərimizin Bjezinski ilə görüşünü təşkil etmişdim. Onlar arasında baş verən maraqlı fəlsəfi müzakirə bu günə qədər yadımdadır.

Ailəvi münasibətlərimiz də yaxın olduğundan bir-birimizin evini ziyarət edirdik. Ənənəvi olaraq, Yeni ilin ilk günündə - yanvarın 1-də Bjezinskinin evində səhər yeməyinə dəvət alan dostları arasında mənim də olmağımdan şərəf duyurdum.

Zbiqnev Bjezinski, heç şübhəsiz, qlobal miqyaslı bir şəxsiyyət idi. Amma hər şeydən əvvəl Amerikanı sevən vətənpərvər idi. Ən başlıca missiyasını Amerika maraqlarını müdafiə etməkdə görürdü. Bu baxımdan, Amerikanın siyasi sistemində pulun təsirinin artan rolunu narahatlıqla qeyd edirdi.

İti zehni, lakonik ifadə tərzi, konkret arqumentlərinə görə Bjezinski zamanımızın ən məşhur siyasi təhlilçilərindən biri idi. O, hər məqalə yazdıqda və ya televiziyada çıxış etdikdə onun yürütdüyü fikirləri öyrənməyə tələsirdik, çünki hər cümləsi böyük məna ilə dolu idi. O, Yer kürəsinin istənilən bucağında baş verən siyasi hadisələrin təfərrüatından xəbərdar idi və onların dünya siyasəti ilə əlaqəsi, keçmiş və gələcəklə bağlılığını aydın görürdü. Təsadüfi deyil ki, bir çox dövlət başçıları və dünya liderləri onun məsləhətlərinə ehtiyac duyurdular.

Fikrimcə, Bjezinskinin ifadələri siyasi elmlərə məxsus tərzdən daha çox riyazi üslubda idi - qısa, aydın və tutarlı dəlillərlə. Son illər Vaşinqtona etdiyim səfərlərin heç biri hörmətli dostumu görmədən keçməzdi. Biz Azərbaycanın uğurları və çətinliklərinə dair həmişə maraqlı söhbətlər edirdik. Bjezinski heç zaman açıq və səmimi rəyini bildirməkdən çəkinmirdi. Onun bizim yeni "ADA" Universitetinə dəstəyini həmişə yüksək dəyərləndirirdim və ümid edirdim ki, Universitetin Qəyyumlar Şurasının üzvü kimi Bakıya gəlib bizi ziyarət edə biləcək. Təəssüf ki, bu arzumuzu gerçəkləşdirə bilmədik.

Dünyanın siyasi səhnəsi ən yüksək səviyyəli bir nəhəngini itirdi: ləyaqətli, dürüst, gözəl yumorlu və nəcib qəlbli bir insanı. Biz, onun üçün darıxacağıq.

***Səfir Hafiz Paşayev***
***xarici işlər nazirinin müavini,***
***"ADA" Universitetinin rektoru***

# Pakistan ictimaiyyəti Azərbaycan həqiqətləri barədə məlumatlandırılıb

***Pakistanın "Centreline" diplomatik jurnalının iyun buraxılışında və jurnalın internet portalında, həmçinin dnanews.com.pk saytında Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadənin müsahibəsi dərc olunub. Müsahibədə Pakistan ilə əlaqələrə dair fikirlərini bölüşən səfir Əli Əlizadə Azərbaycanın və Pakistanın qardaş ölkələr olduğunu vurğulayıb və iki ölkə arasındakı münasibətlərin qarşılıqlı inam, etimad və hörmətə əsaslandığını qeyd edib. Ölkələrimizin hər zaman bir-birinin sevinc və kədərlərini bölüşdüklərini bildirən səfir deyib: "Hər iki ölkənin rəhbərləri əlaqələrə böyük əhəmiyyət verir və hazırda əməkdaşlığımız yüksək səviyyədədir".***




Azərbaycanda bu ilin "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı suala cavab verən səfir ölkəmizin sivilizasiyalararası və dinlərarası dialoqun mərkəzinə çevrildiyini, eyni zamanda, iqtisadi və mədəni körpü rolunu oynadığını diqqətə çatdırıb.




İslam dininin hər zaman sülhü, tolerantlığı, insani dəyərləri təşviq etdiyini və ümumdünya sivilizasiyasına önəmli töhfələr verdiyini bildirən Əli Əlizadə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2017-ci ilin ölkədə "İslam Həmrəyliyi İli" elan edilməsinin əsas məqsədinin İslam dünyasında birliyi möhkəmləndirmək və İslam dinini dünyaya sülh dini kimi təbliğ etmək olduğunu diqqətə çatdırıb.

Heydər Əliyev Fondunun Pakistandakı fəaliyyəti haqqında danışam Əli Əlizadə Fondun Pakistanda fəaliyyətinin 2005-ci ildən başladığını bildirərək deyib: "Bu il Pakistanda baş vermiş güclü zəlzələdən sonra Fondun prezidenti Mehriban Əliyeva Müzəffərabad şəhərində dağılan məktəbin yerində qızlar üçün yeni məktəbin inşası təşəbbüsünü irəli sürüb. Hazırda Fond məktəbi mütəmadi olaraq lazımi ləvazimatlarla təmin edir. Bundan başqa, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Pakistanın bütün əyalətlərində həyata keçirilən sağlamlıq, təhsil, humanitar yönümlü layihələrin əsas təşəbbüskarı kimi çıxış edir. Onun bu fəaliyyəti sözsüz ki, iki ölkə arasındakı münasibətlərin daha da dərinləşməsinə öz töhfəsini verir".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərini bölüşən Əli Əlizadə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik olan yeddi rayonun işğal edildiyini diqqətə çatdırıb. Bu isə ərazimizin 20 faizidir. Münaqişə nəticəsində bir milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib.

Azərbaycanlılara qarşı törədilən Xocalı soyqırımı barədə məlumat verən səfir qeyd edib ki, işğal edilmiş ərazilərdəki tarixi və dini abidələr, o cümlədən məscidlər dağıdılıb. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Müsahibədə Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistanı müstəqil dövlət kimi tanımayan və onunla diplomatik münasibətlər qurmayan Pakistana minnətdarlıq ifadə edilib. Bildirilib ki, Azərbaycan hökuməti və xalqı bunu yüksək qiymətləndirir.

İslam Əməkdaşlıq Təşkilatının Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində göstərdiyi səylərlə bağlı suala cavab verən səfir qurumun Ermənistanı təcavüzkar dövlət kimi tanıyan ilk beynəlxalq təşkilat olduğunu vurğulayıb. Diplomat İƏT-in daim mədəni irsin və İslam abidələrinin dağıdılmasını, demoqrafik vəziyyətin zorla dəyişdirilməsini, işğal edilmiş ərazilərdə aparılan qeyri-qanuni fəaliyyəti pislədiyini və quruma üzv ölkələri öz fiziki və hüquqi şəxslərinin həmin fəaliyyətə cəlb olunmasının qarşısını almağa çağırdığını diqqətə çatdırıb.

Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı hökumətin əldə etdiyi nailiyyətlərlə bağlı danışan Əli Əlizadə müstəqillik illərində hökumətin qarşısında duran əsas vəzifələrdən birinin liberal, güclü, rəqabətədavamlı və müasir iqtisadi sistem qurmaq olduğunu deyib. O, ölkə rəhbərliyinin səmərəli fəaliyyəti nəticəsində iqtisadiyyat sahəsində də strateji məqsədlərə nail olunduğunu bildirib. "İşsizlik və yoxsulluq kimi problemlər həll edilib, insanların həyat şəraiti yüksəlib. Neft və qaz hasilatından, satışından əldə edilən gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi turizm, kosmik sənaye, informasiya və kommunikasiya texnologiyaları, müdafiə sənayesi və digər sahələrdə canlanmaya və inkişafa səbəb olub",- deyə səfir vurğulayıb.

İkitərəfli əlaqələrin inkişafı ilə bağlı fikirlərini bölüşən diplomat ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi üçün mədəni əlaqələrin də böyük əhəmiyyəti olduğunu və iki ölkə arasında bu əməkdaşlığı inkişaf etdirmək üçün sərgilərin, mədəniyyət və incəsənət proqramlarının təşkilinin faydalı olacağını qeyd edib.

Müdafiə və enerji sahələrindəki əməkdaşlıqla bağlı sualı cavablandıran səfir Pakistanın inkişaf etmiş müdafiə sənayesinə malik olduğunu və iki ölkə arasında bu sahədə birgə layihələrin həyata keçirilməsi və eyni zamanda, müasir müdafiə məhsullarının alınması ilə bağlı danışıqların davam etdiyini diqqətə çatdırıb. O, həmçinin Prezident İlham Əliyevin cari ildə Pakistana səfəri zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqla bağlı Sazişin imzalandığını və artıq enerji sahəsində də əməkdaşlığa başlandığını bildirib.

Müsahibədə Əli Əlizadə bu il Azərbaycan-Pakistan diplomatik əlaqələrinin qurulmasının 25 illiyinin qeyd olunduğunu da xatırladıb və hər iki ölkənin rəhbərlərinin və xalqlarının səyi nəticəsində ötən 25 ildə münasibətlərin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını vurğulayaraq deyib: "Əminəm ki, ölkələrimiz arasında mövcud olan qardaşlıq və əməkdaşlıq münasibətləri gələcək illərdə daha da güclənəcək".

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***İslamabad***

## Əmək pensiyalarının ödənilməsi yalnız nağdsız qaydada həyata keçiriləcək

Dünən Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Əmək pensiyaları haqqında" qanununa dəyişiklik müzakirə olunub. SİA-nın xəbərinə görə, dəyişikliyə əsasən Azərbaycanda əmək pensiyalarının ödənilməsi yalnız nağdsız qaydada həyata keçiriləcək.Belə ki, qanununun 37.1-ci (Əmək pensiyasının və əmək pensiyasına əlavənin ödənilməsi (çatdırılması) qaydaları) maddəsinə yeni məzmunda əlavə edilir.Əmək pensiyalarının əhaliyə ödənilməsi (çatdırılması) qaydaları əmək pensiyasını təyin edən orqan tərəfindən müəyyən edilir. Əmək pensiyalarının əhaliyə çatdırılması ilə bağlı xidmət haqları və nağd pul vəsaitinə görə haqqın məbləği həmin orqanın bank və rabitə orqanları ilə bağladıqları müqavilələrlə müəyyənləşdirilir. Əmək pensiyalarının ödənilməsi yalnız nağdsız qaydada həyata keçiriləcək.

Bundan başqa, "Turizm haqqında" qanununa da eyni məzmunlu dəyişiklik edilir. Qanunun 9-cu (Turizm məhsulu satışının təşkili qaydaları) maddəsinə bu hissə əlavə edilir: Turagentlərə ödəmələr yalnız nağdsız qaydada həyata keçirilir.

"Sosial müavinətlər haqqında"da dəyişiklik təklif olunur. Bu qanunun 10-1.1 (Müavinətlərin ödənilməsi qaydaları) maddəsinə dəyişikliyə əsasən, nəzərdə tutulmuş müavinətlər (aylıq müavinət, dövlət qulluqçularına ömürlük müavinətyaşa görə müavinət, əlilliyə görə müavinət, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət, ailə başçısını itirməyə görə müavinət, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət, 3 yaşınadək uşağa qulluğa görə müavinət, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşınadək) uşaqlarına müavinət, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət, 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət) tam məbləğdə və yalnız nağdsız qaydada ödənilir.

"Sosial sığorta haqqında" qanunun 14-cü (Məcburi dövlət sosial sığorta haqqı) maddəsində dəyişiklik edilir. Belə ki, indiyədək hər ay üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqı əmək haqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağd və ya nağdsız hesablaşma qaydasında ödənilirdisə, bundan sonra, yalnız nağd qaydada ödəniləcək.

"Məşğulluq haqqında" qanunun 21.4-cü (Sosial yardım üçün təminatlar) yalnız nağdsız qaydada həyata keçiriləcək. Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunur.

# Qarşıya qoyulan bütün hədəflərə çatmaq üçün ölkəmizdə böyük potensial mövcuddur

*Milli Məclisin deputatı Eldəniz Səlimovun yap.org.az-a müsahibəsi*

***- Eldəniz müəllim, yeni iqtisadi şəraitdə Azərbaycanda iqtisadi islahatların yeni mərhələsi başlanılıb. Bu islahatlar inkişaf baxımından ölkəmizə nə kimi perspektivlər vəd edir?***

- Azərbaycanda son illərdə qlobal məkanda müşahidə edilən mənfi proseslərin, o cümlədən də dünyada neftin qiymətinin kəskin ucuzlaşmasının milli iqtisadiyyatımıza təsirlərini neytrallaşdırmaq və ölkənin davamlı inkişafını bundan sonra da təmin etmək məqsədilə ötən ildən başlayaraq məqsədyönlü tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ölkədə iqtisadi aktivliyin artırılması, o cümlədən də biznes mühitinin optimallaşdırılması, bütün sahələrdə şəffaflığa nail olunması, idarəetmənin təkmilləşdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi və digər istiqamətlər üzrə genişməzmunlu islahatlar həyata keçirilib, iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiqlənib. Görülən tədbirlər artıq öz nəticəsini verir. Belə ki, milli iqtisadiyyatımızda sabitlik təmin edilib və cari ilin ötən dövründə ayrı-ayrı istiqamətlər üzrə müsbət nəticələr əldə olunub.

Yeni şəraitdə isə qarşıya qoyulan əsas vəzifələrdən biri ixracın şaxələndirilməsi ilə bağlıdır. Azərbaycan xarici istehlak bazarlarına qeyri-neft məhsullarının ixracını artırmağı hədəfləyib. Prezident İlham Əliyevin ötən ilin sonlarında imzaladığı müvafiq Fərmanla təsdiqlənən milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində hədəf indikatorlardan biri kimi adambaşına qeyri-neft ixracının 2025-ci ildə ən azı 450 ABŞ dollarına çatdırılması müəyyənləşdirilib. Bu isə azı üç dəfədən çox artım deməkdir.

Bütövlükdə hesab edirəm ki, qarşıya qoyulan hədəflərə qısa müddətdə nail olunacaq. Bunun üçün həm dövlətimizin siyasi iradəsi, həm də iqtisadi potensialı mövcuddur.

***- Qeyd etdiyiniz kimi Azərbaycanda qeyri-neft sektorunun inkişafı xüsusi diqqət mərkəzindədir. İqtisadiyyatın diversifikasiyası baxımdan bu sektorun əhəmiyyəti nədən ibarətdir?***

- Prezident İlham Əliyevin müəyyənləşdirdiyi Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorunun inkişafının təmin edilməsi prioritet istiqamət təşkil edir. Bu sahənin inkişaf etdirilməsində göstərilən davamlı dövlət qayğısının nəticəsidir ki, son illərdə ölkənin iqtisadi inkişaf dinamikasında qeyri-neft sektorunun çəkisi getdikcə artır. Sevindirici haldır ki, artıq ölkəmizdə istehsal olunan ümumi daxili məhsulda qeyri-neft sektorunun xüsusi çəkisi neft sektorunu xeyli üstələyir.



Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə neft gəlirlərinin uğurla modern, innovasiyalara əsaslanan sənaye quruculuğuna yönəldilməsi siyasəti həyata keçirilir. Son illərdə bu sahənin intensiv inkişafının təmin edilməsi məqsədilə mükəmməl infrastruktur yaradılıb, ayrı-ayrı mövcud müəssisələr müasir texnologiyalar əsasında yenidən qurulub, yerli xammalla işləyən, eyni zamanda, ixrac potensialına malik olan yeni istehsalatlar yaradılması məqsədilə əməli tədbirlər həyata keçirilib.

Bu gün Sumqayıtda müasir, böyük sənaye kompleksi yaradılıb və proses davam etdirilir. Dövlət başçısının qərarları əsasında ölkəmizin müxtəlif bölgələrində, o cümlədən Mingəçevirdə, Neftçalada sənaye zonaları və məhəllələri yaradılır. Təbii ki, bütün bunlar ölkəmizdə qeyri-neft sektorunun inkişafında müstəsna rol oynayır. Digər tərəfdən isə ölkəmizdə istehsal olunan məhsulların ixracı məsələləri də diqqət mərkəzindədir. Sənayedə və kənd təsərrüfatında mövcud olan geniş potensial, ölkənin coğrafi mövqeyi, tranzit-nəqliyyat imkanlarının genişlənməsi qeyri-neft ixracının həcmini əhəmiyyətli dərəcədə artırmaq üçün fundamental amillər qismində çıxış edir.

***- Bildiyimiz kimi qeyri-neft sektorunda aqrar sahə xüsusi yer tutur. Ölkəmizdə aqrar sahənin inkişafı hər zaman dövlətin diqqətindədir. Bu mənada Azərbaycanda qəbul olunan dövlət proqramları xüsusi əhəmiyyət daşıyır. Ümumiyyətlə, son illər kənd təsərrüfatının inkişafı ilə bağlı atılan addımları və bu istiqamətdə həyata keçirilən islahatları necə qiymətləndirirsiniz?***

- Əlbəttə ki, yeni iqtisadi şəraitdə Azərbaycanın üstün inkişafını hədəflədiyi sahələrdən biri də aqrar sektordur. Ölkəmizin malik olduğu əlverişli coğrafi-iqlim xüsusiyyətləri, fəal məşğul əhalinin 40 faizdən çoxunun bölgələrdə yaşaması bütün respublikaboyu kənd təsərrüfatının qarşısında geniş inkişaf perspektivləri açır. Dövlət tərəfindən göstərilən davamlı siyasi və maddi-texniki dəstək hesabına aqrar sektorun geniş potensialından maksimum səmərə ilə istifadə etməklə yeni şəraitdə ölkənin qeyri-neft məhsulları üzrə ixrac imkanlarını əhəmiyyətli dərəcədə artırmaq mümkündür.

Bu gün Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətində olduqca münbit bir şərait yaradılıb. Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və bu gün hörmətli Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi aqrar siyasət kursunun nəticəsi olaraq bu sahədəki boşluqlar aradan qaldırılıb, kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm sənədlər, o cümlədən, ərzaq təhlükəsizliyi və regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramları təsdiq olunub. Bu proqramlar Azərbaycanın ərzaq təhlükəsizliyinin təminatı istiqamətində atılmış mühüm addımlardır. Bu gün ölkəmizdə ərzaq təhlükəsizliyi məsələsi ölkə əhalisini təmin edəcək həcmdə məhsulun istehsalı və emalı potensialının mövcudluğu, ölkə əhalisi tərəfindən istehlak edilən ərzağın keyfiyyəti, dövlət əhəmiyyətli strateji ərzaq məhsullarının ölkədaxili istehsalı kimi komponentləri özündə birləşdirir.

Bilirsiniz ki, Milli Məclisdə aqrar sahə ilə bağlı, o cümlədən strateji məhsullar haqqında qanunlar qəbul edilib. Eləcə də, son illər dövlət başçısı tərəfindən bu sahənin inkişafı ilə əlaqədar mühüm fərman və sərəncamlar verilib. Bu sənədlər bəhs olunan sahənin davamlı inkişafının hüquqi bazasını təşkil edir.

Yeni iqtisadi şəraitdə dövlət başçısı tərəfindən bir sıra kənd təsərrüfatı məhsullarının istehsalını əhəmiyyətli dərəcədə artırmaq vəzifəsi qarşıya qoyulub və bu yöndə fermerlərə, iş adamlarına güzəştlər edilir. Xüsusilə, pambıqçılıq, tütünçülük, baramaçılıq, fındıqçılıq və digər məhsulların istehsalını artırmaq və ixrac etmək yönündə ciddi addımlar atılır. Artıq bu istiqamətdə müsbət nəticələr əldə olunmaqdadır. Belə ki, adıçəkilən sahələrdə istehsalın artırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı məhsullarının xaricə ixracı prosesində də artım müşahidə edilir. Şübhə yoxdur ki, bu yöndə vəziyyət ildən-ilə daha da yaxşılaşacaq.

***- Eldəniz müəllim, bildiyimiz kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları həyata keçirilməkdədir. Bu proqramların uğurlu nəticələri haqqında fikirlərinizi bilmək istərdik...***

- Regionlarda kənd təsərrüfatının inkişafının təmin olunmasında həyata keçirilən Dövlət proqramlarının mühüm rolu var. Belə ki, 2004-cü il fevralın 11-də təsdiqlənmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nı bölgələri dirçəldən mühüm ilkin konsepsiya adlandırmaq olar. Belə ki, məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində 2004-2008-ci illəri əhatə edən ilk Dövlət Proqramında qarşıya qoyulan hədəflərə vaxtından tez çatmaq mümkün olub. Bunun ardınca isə 2009-2013-cü illəri əhatə edən Dövlət Proqramında qarşıya qoyulan vəzifələr də uğurla yerinə yetirildi.

Hazırda isə 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramı icra olunmaqdadır. Sözsüz ki, bu Dövlət proqramları qarşıya qoyulan məqsədlərə nail olunması ilə yanaşı, Azərbaycanda bir sıra sahələrdə sıçrayışlı inkişafa da təkan verib. Digər tərəfdən, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla yerinə yetirilməsi ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etməklə yanaşı, kənd təsərrüfatının inkişafına zəmin yaradıb.

Son illərdə ölkənin regionlarında aqrar sektorun davamlı inkişafına nail olmaq məqsədilə zəruri tədbirlər həyata keçirilir. Fermerlərə güzəştli subsidiyaların artırılması, dövriyyəyə yeni torpaqların cəlb olunması, kollektiv təsərrüfatların yaradılması, zəruri texnikanın alınması bu kimi tədbirlər sırasındadır. Bütün bunlarla yanaşı, yeni təsərrüfatçılıq metodlarının tətbiqi, müasir aqrarsənaye müəssisələrinin yaradılması sayəsində regionlarda aqrar sektorun inkişafında yeni mərhələ başlayıb. Hazırda respublikamızda iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir.

***- Siz Milli Məclisdə Xaçmaz rayonunu təmsil edirsiniz. Regionların sosial-iqtisadi inkişafından danışarkən, Xaçmazın da inkişafı haqqında məlumat verməyinizi xahiş edirik...***

- Danılmaz həqiqətdir ki, respublikamızda, o cümlədən regionlarımızda həyata keçirilən geniş miqyaslı tikinti-quruculuq, abadlıq işləri möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəmizin inkişafı və tərəqqisi naminə yorulmaz fəaliyyətinin, həyata keçirdiyi uzaqgörən siyasətin nəticəsində mümkün olmuşdur. Məhz buna görə də Azərbaycan xalqı, eləcə də xaçmazlılar Heydər Əliyev siyasətinə və bu siyasi xətti çox böyük uğurla davam və inkişaf etdirən Prezidentimiz İlham Əliyevə minnətdardırlar.

Məlumat üçün bildirim ki, bu ilin birinci rübü rayonumuz üçün də bir sıra hadisələrlə əlamətdar olmuş, kifayət qədər böyük həcmli tikinti-quruculuq, abadlıq işlərinə başlanılmışdır. Bu dövrdə görülmüş işlər nəticəsində rayonumuzda 1801 yeni iş yeri açılmışdır ki, bunlardan 1408-i daimi iş yerləridir. Ümumən 2003-cü ildən rayon üzrə 27032 yeni iş yeri açılmış, bunların 17792-i daimi iş yerləridir.

Rayon üzrə Ümumdaxili məhsulun həcmi 51,8 milyon manat, sənaye məhsulunun həcmi 7,6 milyon manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 12,7 milyon manat təşkil etmişdir. Məlumdur ki, Xaçmaz rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Cari ilin məhsulu üçün bütün təsərrüfat qurumları daxil olmaqla 32642 ha sahədə taxıl əkilib. Hazırda rayonda 19212 ha meyvə bağları vardır ki, bunların 530 hektarı bu ilin birinci rübündə salınmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəyə daha çox valyuta gətirən məhsulların əkilməsinə üstünlük verilməsi ilə bağlı göstərişlərinə əsasən bu istiqamətdə bir sıra işlər həyata keçirilməyə başlamışdır. Bu baxımdan respublikamızda fındıq bağlarının artırılması üçün əməli tədbirlər görülür və rayonumuz fındıq bağlarının artırılması nəzərdə tutulan 12 rayondan biri kimi qəbul olunmuşdur. Ölkə üzrə 40 min ha yeni fındıq bağlarının salınması nəzərdə tutlur ki, bunun da 5016 hektarı Xaçmaz rayonunun payına düşür.

Bu məsələ ilə əlaqədar RİH Başçısının sədrliyi ilə xüsusi qərərgah yaradılmış, yeni fındıq bağlarının əkilməsi nəzərdə tutulan ərazilər müəyyən edilmişdir. Rayonun demək olar ki, bütün ərazilərinə düşən bu sahələrin 2070 hektarı dövlət, 2946 hektarı bələdiyyə mülkiyyətinə aiddir. Mövcud 4249 ha bar verən fındıq bağlarından yeni bağların salınması üçün kifayət qədər fındıq pöhrələrinin tədarük edilməsi imkanı vardır. Bu günədək 2037 ha ərazidə yeni fındıq bağları salınmışdır ki, bunun 511 hektarı birinci rübün payına düşür. Bu iş payız aylarında davam etdiriləcəkdir.

Ümumiyyətlə, rayonumuzda abadlıq və quruculuq işləri böyük vüsət alıb. Rayonun turizm imkanları genişdir və ildən - ilə istirahət mərkəzlərinə gələn turistlərin sayı artır.

Eyni zamanda, rayonun kəndlərinin qazlaşdırılması, yolların çəkilməsi, təhsil və digər sosial yönlü müəssisələrin tikintisi davam edir. Bütövlükdə, regionların sosial-iqtisadi inkişafı Xaçmaz rayonunda da özünü əyani şəkildə göstərir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

6 iyun 2017-ci il

# Cənubi Qafqazda münaqişələrin həlli: nazirlərin Moskva görüşü fonunda

***Rusiya XİN rəhbəri Sergey Lavrovun təşəbbüsü ilə Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olub. Müzakirələrdə S.Lavrov da iştirak edib. E.Məmmədyarov və E.Nalbandyan sonra ATƏT-in Minsk qrupunun həmsədrləri ilə danışıqlar aparıblar. Müzakirələr və gəlinən qənaətlər barədə geniş məlumat verilmir. Lakin Rusiya KİV tərəflərin münaqişə ilə bağlı müzakirələri davam etdirmək qərarına gəldiklərini vurğulayır. Buna rəğmən, Ermənistanın siyasi rəhbərliyi və KİV-i Azərbaycan əleyhinə təxribatçı informasiyalar yaymaqdan çəkinməyiblər. Onlar əvvəlcədən Azərbaycanın danışıqlarda guya maraqlı olmadığını yazıb və faktiki olaraq, Rusiya XİN-in təşəbbüsünü aşağılayıblar. Üstəlik, Ermənistan XİN-in sözçüsü birbaşa Bakını ittiham edən fikir söyləyib. Bunlar İrəvanın real olaraq münaqişənin sülh yolu ilə həllinə hazır olmadığını və onun növbəti dəfə danışıqlara əngəl törətdiyini sübut edir.***




## Işğalçının qorxusu: yenə qarayaxma kampaniyası

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqların canlandırılması zərurətini ilk baxışdan sanki hər kəs anlayır. Rəsmi İrəvan da bununla bağlı tez-tez fikir bildirir. Lakin müzakirələrin aparılmasını işğalçı dövlətin rəhbərlərinin dərk etdiyini demək mümkün deyildir. Onlar keçən əsrin 90-cı illərində olduğu kimi, indi də müxtəlif bəhanələrlə sülh prosesini dalana salmağa çalışırlar. Məqsədləri aydındır - təcavüzkar siyasəti ört-basdır etmək və qonşu ölkənin ərazisinin bir hissəsini işğalda saxlamaq. Təəssüf ki, eyni yanaşmanı xarici işlər nazirləri Elmar Məmmədyarov və Edvard Nalbandyanın son Moskva görüşü ərəfəsində erməni siyasi dairələri və ekspertlərinin yanaşmasında müşahidə etdik.

Moskva tərəfinin nazirlərin müzakirələri barədə məlumat verməmək haqqında öncədən xəbərdarlıq etməsinə baxmayaraq, rəsmi İrəvan böhtanlarla Azərbaycanı ittiham etmək kimi mənfur taktikadan əl çəkmədi. Erməni XİN-in sözçüsü utanmadan Azərbaycanın atəşkəsi pozduğunu və məqsədinin danışıqlara maneçilik törətməkdən ibarət olduğunu dilinə gətirdi. Təsəvvür edin, Moskvada münaqişəni dinc yolla həll etmək, tərəflər arasında ortaq nöqtələr tapmaq üçün nazirlər görüşürlər, eyni zamanda, Ermənistan XİN (danışıqda iştirak edən nazirin rəhbərlik etdiyi rəsmi orqan) məlumat yayır ki, Azərbaycanla müzakirələr nəticəsiz qalacaq. Deməli, ümumiyyətlə, Ermənistan hakimiyyətinin münaqişəni həll etmək fikri yoxdur. Səbəbi də çox aydındır.

Çünki Ermənistan bir işğalçıdır. Münaqişəni həll etməyin yolu İrəvanın işğaldan əl çəkməsini tələb edir. Bundan kənarda hansısa real haldən söhbət gedə bilməz. Başqa cür düşünmək, yel dəyirmanı ilə savaşmaq deməkdir. Yəni, konkret olaraq, Ermənistan zəbt etdiyi torpaqlardan rədd olub getməlidir. Rəsmi İrəvan da məhz bunu istəmir. Həmin səbəbdən də hər bir danışıq ərəfəsində, yaxud sənəd qəbul edildəndən sonra müxtəlif uydurmaları ortaya atır. Bu kontekstdə bir sadə həqiqəti demək istərdik: özlüyündə Ermənistan zəif və aciz dövlətdir, təkbaşına bir gün belə Azərbaycan qarşısında tab gətirə bilməz. Onun belə şıltaqlığının arxasında Rusiya və Qərbdəki havadarları dayanır.

Son Moskva müzakirələri ərəfəsi də erməni ekspertlərin irəli sürdükləri fikirlərdə bu məqam gizli də olsa, öz əksini tapıb. Onlar bir ağızdan gah Qərbin cəbhə xəttində monitorinqindən, gah da Moskvanın verdiyi "İsgəndər"lərdən danışırlar. Bunun fonunda Azərbaycanın Rusiyadan silah almasını Kremlin böyük xəyanəti kimi təqdim edirlər. Bundan kənarda Ermənistanın ekspert dairələrinin bircə dənə də olsun tezisi yoxdur. Çünki erməni dövləti kənar qüvvələrin yaratdığı qondarma bir şeydir.

Çox gülməlidir ki, Moskva görüşü ərəfəsi Ermənistan KİV-i Rusiyanı Azərbaycanı müdafiə edən tərəf kimi təqdim etməkdə dəridən-qabıqdan çıxıb. Guya Moskva ilə Bakı birləşib, "qəhrəman erməni ordusu"nu məğlub etməyə çalışır, lakin dığalar çox qoçaqlıq göstərirlər. Hətta erməni "komandosları"nı amerikalılar elə təchiz ediblər ki, hər anı izləyə bilirlər! Maraqlıdır, Vaşinqton Suriyada kürd terror qrupları ilə Cənubi Qafqazda erməni terrorçularını eyni fəallıqla silahlandırmaqdadır. ABŞ bu mövqeyi ilə Minsk qrupunun həmsədri olaraq, hara kimi gedə biləcək? Eyni sualı Fransa və Rusiya ilə bağlı verə bilərik. Onların cavabını zaman verəcək.

## Vasitəçilik səmimiyyəti: həmsədrlərdə nə zaman olacaq?

Bunlara rəğmən, Moskva nazirləri danışıqlara dəvət edib ki, bu da müsbət addımdır. Belə kritik bir məqamda ermənilərin təxribatçı hərəkətlər etməsi təkcə Azərbaycana qarşı deyil, həm də Amerika, Fransa və Rusiyaya qarşı uyğunsuz hərəkətdir. Təəssüf ki, Rusiya XİN-dən bununla bağlı heç bir təpki eşidilmədi.

Ancaq xatırlarsınız, bir neçə ay öncə Rusiya XİN Azərbaycan tərəfini danışıqların gizli tərəfini açmaqda ittiham etmişdi. İndi Ermənistan XİN nümayəndəsinin Azərbaycanla bağlı çərənləməsinə niyə münasibət bildirilmir? Doğrudanmı, Ermənistan XİN-in mətbuat katibinin "Azərbaycanın heç bir tutarlı arqumenti yoxdur və danışıqların nəticəsi Bakını maraqlandırmırır" kimi cəfəng fikri ilə Rusiya Xarici İşlər Nazirliyi razıdır? Onda danışıqlar nə üçündür? Onsuz da "qədim və hər şeyi bilən ermənilər" əvvəlcədən falçılıq edirlər!

Əslində, burada ziddiyyət yoxdur. Çünki Ermənistanın rəsmi dairələri daim münaqişənin sülh yolu ilə həllinə əngəllər yaradıblar. Bu da onların növbəti təxribatlarından biridir. Görünür, həmsədrlər də ermənilərin bu cür şıltaqlığına imkanlar yaradırlar. Əsas məsələ Azərbaycandan işğal edilmiş torpaqları qoparmaqdan və regionda bəzi dövlətlərin geosiyasi maraqlarını təmin etməkdən ibarətdir. Açığı, məsələ budur.

Biz Moskvada nazirlərin nələri müzakirə edib, hansı detallar üzərində dayandıqlarını bilmirik. Rusiya KİV-in yaydığı informasiyaya görə, tərəflər danışıqları davam etdirmək qərarı alıblar. Tərəflər Vyana və Sankt-Peterburqda əldə edilən razılaşmaların şərtlərinə əməl etməyin zəruriliyini vurğulayıblar. Nazirlər "müzakirə edilən bütün məsələlər üzrə təmasları davam etdirməyə razılaşıblar".

Bundan başqa, E.Məmmədyarov və E.Nalbandyan ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşüblər. Onlar münaqişənin həlli ilə bağlı fikir mübadiləsi aparıblar.

ATƏT-in fəallığının səbəbləri aydındır. Çünki son zamanlar Yaxın Şərqdə böyük dövlətlərin mübarizəsi o dərəcədə gərginləşib ki, Cənubi Qafqaz istiqamətində sabitliyin qorunması da aktuallaşıb. Bu kontekstdə İrəvan və Bakının nəbzini yoxlamağın mənası vardır. Rəsmi Moskvanın da bunda marağının olması sirr deyil. Təbii ki, Azərbaycan tərəfi regionda hansısa qeyri-müəyyənliyin yaranmasında qətiyyən maraqlı deyil. Əksinə, Cənubi Qafqazda sabitliyin və əməkdaşlığın təntənəsi həlelik məhz Azərbaycan və Türkiyənin güclənməsi sayəsində mümkün olub. Azərbaycan Ordusu erməni təxribatlarını yerindəcə boğur və ixtilafın yayılmasına imkan vermir. Eyni zamanda, rəsmi Bakı aktiv və dialoq məzmunlu diplomatiyası ilə proseslərin siyasi müzakirələr məcrasından çıxmasını əngəlləyir.

Bunlarla yanaşı, İŞİD kimi terror təşkilatları fəaliyyət taktikalarını dəyişirlər, biz sıra Qərb dövlətləri də Yaxın Şərqdə terror qruplarına yardımlarını artırırlar ki, bunun mənfi təsiri yaxın regionlarda da özünü göstərə bilər. Bu cür həssas geosiyasi vəziyyətin fonunda Dağlıq Qarabağ üzrə danışıqların real müstəvidə aktivləşməsi çox vacibdir. Lakin rəsmi İrəvan bundan qətiyyən maraqlı olmadığından hadisələrin hansı istiqamətdə davam edəcəyini proqnozlaşdırmaq çətindir.

Görüşlə bağlı verilən məhdud informasiyalar göstərir ki, bir tərəfdən regionda geosiyasi vəziyyət xeyli mürəkkəb olaraq qalır. Həmsədrlər də bundan ehtiyat edirlər. Onlar hər hansı kəskin hərəkətlərin və təxribatların olmasını arzulamırlar. Digər tərəfdən isə məhz ilk növbədə həmsədrlər təcavüzkara "dur" demək istəmirlər. Hətta belə bir ehtimal var ki, Yaxın Şərqdə terrorçulara necə yardım edilirsə, Dağlıq Qarabağdakı qanunsuz rejimə də eyni dəstəyi versinlər. Çünki Yaxın Şərq nümunəsi göstərir ki, supergüclər üçün bu istiqamətlərdə sərhəd çox mütəhərrikdir. Deməli, Cənubi Qafqazda yeni erməni təxribatlarını gözləməliyik. Onun təzahürü bu günə kimi olanlardan fərqli ola bilər. Lakin mahiyyət dəyişmir - erməni terroru davam edir!

***Newtimes.az***

# Bakıda "Müasir dövlət qulluğu: yeni paradiqmalar, innovasiyalar və təcrübələr" mövzusunda konfrans keçirilir

**_Birləşmiş Millətlər Təşkilatının və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə icra etdiyi "Azərbaycan Respublikasında dövlət qulluğu üzrə təlimlərə dəstək" layihəsi çərçivəsində iyunun 5-də Bakıda "Müasir dövlət qulluğu: yeni paradiqmalar, innovasiyalar və təcrübələr" mövzusunda yekun konfrans işə başlayıb. AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə təşkil olunan layihənin əsas məqsədi dövlət qulluğu məsələlərinin hazırkı vəziyyətinin müzakirə olunması, bu sahədə təcrübə və biliklərin mübadiləsini aparmaqdır. İkigünlük konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, on iki nazirliyin, üç dövlət xidmətinin, üç dövlət komitəsinin, Heydər Əliyev Fondunun, məhkəmə-hüquq orqanlarının, qırxa yaxın rayon icra hakimiyyətinin nümayəndələri iştirak edirlər._**




Tədbiri açan Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov ölkəmizdə dövlət qulluğu sistemində əldə edilən inkişaf barədə danışıb. Bildirib ki, konfrans və birgə layihə çərçivəsində həyata keçirilən tədbirlər Dayanıqlı İnkişaf Məqsədlərinin hədəflərinə uyğun gəlir və Azərbaycanda səmərəli dövlət qulluğu institutunun formalaşmasına yardım edəcək. Azərbaycanda çevik dövlət qulluğu sisteminin formalaşdığını deyən rektor ölkəmizdə dövlət quruculuğu, dövlət idarəetmə sisteminin formalaşması və dövlət qulluğunun inkişafı proseslərində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini qeyd edib. O, Ulu Öndərin dövlət idarəçiliyi sahəsində milli kadr potensialının formalaşdırılması ilə bağlı hələ ötən əsrin 70-80-ci illərində gördüyü işlərdən, eləcə də müstəqil Azərbaycanda müasir dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı, bu sahədə hüquqi bazanın yaradılması sahəsində mühüm tarixi xidmətlərindən söz açıb.

BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının (BMTİP) rezident nümayəndəsi Qulam İshaqzai Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmasında dövlət qulluqçularının mühüm rolunu vurğulayıb. Qeyd edib ki, dövlət qulluğu ölkədə qürur və fəxr mənbəyi olmalıdır. Texniki baxımdan səmərəli, eləcə də geniş əhali təbəqələrinin ehtiyaclarına cavab verən siyasətin hazırlanmasında peşəkar dövlət qulluqçuları əsas rol oynayır.

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov Azərbaycanda dövlət qulluqçularının hazırlanması istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, hazırda müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı sahəsində çoxşaxəli vəzifələri yerinə yetirən Azərbaycan dövləti cəmiyyətin tələblərinə uyğun olaraq, xalqımızın istək və arzularının daha çevik və səmərəli şəkildə həyata keçirilməsinə xidmət edən dövlət idarəçiliyi sisteminin formalaşdırılmasını prioritet fəaliyyət sahələrindən biri kimi diqqət mərkəzində saxlayır. Dövlət qulluğu Azərbaycanın müstəqil dövlətçiliyinin möhkəmləndirilməsində, sosial-iqtisadi proqramların həyata keçirilməsində, mədəni inkişafında və bütövlükdə cəmiyyət həyatının müxtəlif sahələrinin tənzimlənməsində böyük əhəmiyyət kəsb edən fəaliyyət sahəsidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də bu işə öz töhfəsini verir.Tədbir müzakirələrlə davam edib.



# "Ən yaxşı göycə" müsabiqəsinin qaliblərinə diplomlar təqdim olunub

Naxçıvan şəhərində keçirilən ikinci "Göycə" festivalının son günündə də tədbirə böyük maraq olub. AZƏRTAC xəbər verir ki, səhər saatlarından Naxçıvanqalanın geniş ərazisində yüzlərlə Naxçıvan sakini və şəhərdəki turistlər göycə sərgiləri ilə tanış olmaq üçün bura axın ediblər. Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə", Naxçıvan Musiqi Kollecinin "Gənclik" instrumental musiqi ansambllarının ifaları festival iştirakçılarında xoş ovqat yaradıb.

Muxtar respublikada göycənin ən çox yetişdirildiyi Şərur, Babək, Kəngərli, Culfa və Ordubad rayonlarından 200-dən çox bağbanın gətirdiyi meyvələrə böyük maraq olub. Tədbirin ikinci günü 20 tondan çox göycənin satışa çıxarıldığı festivalda vətəndaşlara nümunəvi xidmət göstərilib. Tədbirin sonunda "Ən yaxşı göycə" müsabiqəsinin qaliblərinə diplomlar təqdim olunub. Müsabiqənin nəticələrinə əsasən Şərur rayonunun Danyeri kənd sakini Yaqub Həsənov I, Naxçıvan şəhər sakini Vidadi Quliyev II, Babək rayonunun Şıxmahmud kənd sakini Nüsrəddin Musayev III-cü yerə layiq görülüblər. Münsiflər heyətinin qərarına əsasən əlavə bir həvəsləndirici yer də müəyyənləşdirilib. Həmin yerin sahibi Ordubad rayonunun Sabirkənd sakini Xəlil Fərəcov olub.

# Təhsil naziri Göyçayda vətəndaşları qəbul edib



İyunun 5-də təhsil naziri Mikayıl Cabbarov Göyçay şəhərindəki Heydər Əliyev Mərkəzində Ucar, Zərdab, Göyçay və Ağcabədi rayon sakinlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbuldan əvvəl təhsil naziri Mikayıl Cabbarov və Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə Heydər Əliyev Mərkəzində Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla anıblar. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Ucar, Zərdab, Göyçay və Ağcabədi rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edib. Qəbulda vətəndaşlar müəllimlərin yerdəyişməsi və işə qəbulu, orta ixtisas təhsili müəssisəsinə bərpa olunma, direktorların işə qəbulu və digər məsələlərlə əlaqədar müraciət ünvanlayıblar. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq struktur bölmələrinə və yerli təhsili idarəetmə qurumlarına tapşırıqlar verilib, əksər məsələlər isə yerindəcə həllini tapıb.

# Azərbaycan növbəti dəfə Qəbələ Beynəlxalq Musiqi Festivalına ev sahibliyi edəcək



İyulun 29-dan avqustun 3-dək IX Qəbələ Beynəlxalq Musiqi Festivalı keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə məlumat festivalın "facebook" səhifəsində yer alıb. Festivalın proqramı tezliklə açıqlanacaq. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən keçirilən festival ildən-ilə böyüyən tamaşaçı auditoriyası və ahəngdar musiqi keyfiyyəti ilə diqqəti cəlb edir. Festival günlərində Qəbələ səhnəsində Azərbaycanın və dünyanın dahi bəstəkarlarının əsərləri səsləndirilir. Gənc ifaçılarla yanaşı, dünya şöhrətli musiqiçilər də səhnəyə çıxırlar. Burada klassik və kamera musiqisi, muğamlarımız ifa olunur. Musiqinin gücü o qədər qüdrətli və sərhədsizdir ki, dünyanın müxtəlif ölkələrindən bu festivala gələn məşhur solistlərin, orkestrlərin ifası ilə mənəvi yaxınlığı hiss etməyə imkan verir.



# Ermənıçilik toplusu

**Rəfiqə**

**_Müxalif düşərgənin dağıdıcı qütbünün xarici maraqlı dairələrinin təsiri altında olması hamıya yaxşı bəllidir. Azərbaycanın çörəyini yeyib, suyunu içərək böyüyən, adam içinə girib özünü adam sanmağa başlayan, sonradan isə bütün bunları unudaraq, yediyi çörək və içdiyi su qabına qudurğancasına şıllaq atıb aşıran erməniçilik toplusu o qədərdir ki! Təəssüf doğuran da odur ki, beləi hələ də özlərinə "azərbaycanlı" deməkdədirlər. Belə "azərbaycanlılar"ın siyasi mühacir olmalarına təkan verən daha bir güc onlarda mövcud olan tükənməz erməniçilik sevdasıdır. Bir də bu gün erməni deyilən bir bici, nəsli-kökü bilinməzi azərbaycanlı deyilən bir qeyrətlidən daha artıq tutmaqla, əslində, nə qədər mənəviyyatsız olduqlarını göstərirlər._**

Elə bu yerdə özünü gah "araşdırmaçı-jurnalist", gah da "hüquq müdafiəçisi" kimi təqdim edən Xədicə İsmayıl ofisi Almaniyada yerləşən və bilavasitə, Azərbaycanın dövlətçilik maraqlarına qarşı çıxan, eyni zamanda, erməni lobbisinin maraqlarını müdafiə edərək, qrant adı altında rüşvətlər alan "Meydan" TV internet üzərindən yayımlanan media qurumunu tərifləməsi onun gerçək üzünün göstəricisidir. Bu, o X.İsmayıldır ki, dövlətə xəyanət etməklə, rahat şəkildə gedib özünə erməni qohumları seçmək üçün dəridən-qabıqdan çıxır. Əslində, bu satqın və xəyanətkar, meydanda tək deyil. Onun kimi Leyla-Arif Yunuslar, Emin Milli, Qənimət Zahid... kimilər də var ki, onlar Azərbaycan xalqı tərəfindən rədd edilirlər. Belələrini unutmaq daha yaxşıdır. Misal üçün, Rüstəm İbrahimbəyovdan imtina edən qardaşı Maqsud İbrahimbəyov, Qənimət Zahiddən imtina etmiş qardaşı Mirzə Sakit... Bu məsələnin kökündə dayanan digər amillərdən biri isə də radikaizlim amilidir. Bu gün bu satqınları müdafiə edənlər kimlərdir? Elə onlar kimi erməniyə dayı, əmi, hətta ata deyən axecepenin satqınbaşı Əli Kərimli və onun çar-çaqqalları. Artıq hər kəs görür və bilir ki, Azərbaycanda köhnəlmiş, bir neçə yerə satılmış müxalifət adlananlar heç bir işə gərək deyillər.

Bu yerdə fikirlərimi ataların dediyi ibrətamiz bir sözlə bitirmək istərdim: "Məscidin gümbəzinə nə qədər daş atsan, o daş sürüşüb yerə düşər". Azərbaycana da bu satıb-satılanlar nə qədər daş atmağa çalışsalar da, onların şər-böhtanları bizim ölkəmizə yapışmayacaq. Çünki Azərbaycan öz qətiyyətli yolu ilə gedir və onu bu yoldan kimsə döndərə bilməyəcək.

# Tədbirlər Planı post-neft dövrünün çağırışlarına uyğun olaraq islahatların dərinləşdirilməsində yeni mərhələ kimi qiymətləndirilir



***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Tədbirlər Planını təsdiq edib.***

Sənədi şərh edən iqtisadçı alim Vüqar Bayramov AZƏRTAC-a bildirib ki, bu sənədin həyata keçirilməsi beynəlxalq hesabatlarda Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılmasına töhfə verməklə yanaşı, həmçinin biznes mühitinin daha yaxşılaşdırılması, kreditlərə əlçatanlığın artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi, iqtisadiyyatın müxtəlif sahələrində proseduraların sadələşdirilməsi kimi vacib islahatların dərinləşdirilməsinə gətirib çıxaracaq.

Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığının artırılması baxımdan kreditlərə müraciət zamanı sənəd daşınmaz əmlak ilə yanaşı, daşınar əmlakın da girov kimi təqdim edilməsinə da imkan yaradır. Daşınar əmlak ilə yaradılacaq reyestr xidməti məlumatların şəffaf və açıq şəkildə paylaşdırılmasına şərait yaratmaqla yanaşı, həmçinin yalnız istehlak deyil, o cümlədən biznes kreditlərinə əlçatanlığın artmasına səbəb olacaq. Tədbirlər Planına əsasən, fiziki və hüquqi şəxslər üçün şəffaf və əlçatan olan, bütün ölkəni və bütün aktivləri əhatə edən onlayn reyestrin yaradılması nəzərdə tutulur. Daşınar əmlakın girov kimi təqdim edilməsi kreditlərdən faydalananların sayının artmasına və eləcə də maliyyə resurslarından daha səmərəli istifadəsinə imkan verəcək. Tədbirlər Planına əsasən, ölkəmizdə özəl kredit bürosunun yaradılması prosesinə dəstəyin gücləndirilməsi nəzərdə tutulur ki, bu da kreditlərə əlçatanlığın təmin edilməsi baxımdan vacib islahatdır. Borcluların məlumatları əsasında onların kredit reytinqinin hesablanması prosesinin dövlət tərəfindən dəstəklənməsi də bu istiqamətdə həyata keçiriləcək islahatlar sırasındadır.

Sənədə əsasən, bank sisteminin kapitallaşdırılması və likvidliyin təmin edilməsi, fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatlar aparılması və eləcə də Azərbaycanda lizinq və alternativ maliyyə alətləri (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) bazarının inkişaf etdirilməsi ilə kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılması kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bankların likvidliyinin təmin edilməsi bank sektoruna inamın artırılması baxımdan olduqca vacibdir. Bununla yanaşı, forvard, fyuçers, opsion, svop, faktorinq kimi alətlərdən istifadə edilməsi bankların gəlirliliyinə təsir göstərməklə yanaşı, qiymətli kağızlar bazarının da inkişafını stimullaşdıracaq.

Maliyyə xidmətlərinin əlçatanlığının artırılması baxımdan ən vacib islahatlardan biri də Tədbirlər Planında kiçik və orta sahibkarlar üçün kreditlərə zəmanət fondunun yaradılmasıdır. V.Bayramov qeyd edib ki, zəmanət fondunun formalaşdırılması sahibkarların kreditlərə əlçatanlığını artırmaqla yanaşı, bank risklərinin də sığortalanmasına xidmət edəcək. Bu mexanizm imkan verəcək ki, kiçik və orta sahibkarlıq subyektləri üçün təqdim edilən kreditlərə fond tərəfindən zəmanət verilsin. Bununla da, sahibkarlar sözügedən zəmanətdən istifadə etməklə kreditlərdən daha səmərəli faydalana biləcəklər, banklar isə kiçik və orta sahibkarlar ilə əməkdaşlıqda maraqlı olacaqlar.

Tədbirlər Planında investorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması və banklararası pul bazarında aktivliyin artırılması səhm bazarının inkişafının əsas istiqamətlərindən hesab edilir. Post-neft dövrünün çağırışlarına uyğun olaraq ölkəmizdə səhm bazarının inkişafı daha prioritet hesab edilir. Səhm bazarının inkişafı bank sistemi ilə yanaşı real sektorda kooperativ idarəetmənin inkişafına və daxili maliyyə mənbələrdən daha yaxından faydalanmağa imkan yaradacaq.

Bankların dayanıqlılığının artırılması məqsədilə həyata keçiriləcək islahatlar likvidliyin gücləndirilməsi, qeyri-işlək aktivlərin restrukturizasiya planının hazırlanması tədbirləri ilə yanaşı bankların hesabatlılığının gücləndirilməsi və o cümlədən bu sektorda şəffaflığın genişləndirilməsi kimi tədbirləri əhatə edir.

Tədbirlər Planında digər vacib məqam dövlət sektorunda qərarların qəbulunda şəffaflığın daha da gücləndirilməsi ilə bağlıdır. Belə ki, sənədə əsasən, yeni dövlət qərarlarının, qanunvericilik aktlarının mahiyyətinin qısa əks olunduğu, istifadəçilər üçün daha asan və əlçatan onlayn resursların yaradılması nəzərdə tutulur. Bu isə o deməkdir ki, hər bir dövlət qurumu öz fəaliyyəti ilə bağlı qəbul edilən qərar və aktların izahatını sadə və anlaşıqlı dildə ictimaiyyət üçün izah edəcək. Bu zaman həmin izahatlar internet üzərindən ictimaiyyətə təqdim ediləcək və hər bir vətəndaşın, o cümlədən sahibkarların həmin məlumatlara maneəsiz əlçatanlığı təmin ediləcək.

Büdcə konsolidasiyasının davam etdirilməsi post-neft dövrünün çağırışlarına uyğun olaraq büdcə xərcləmələrində səmərəliliyin artmasına imkan verəcək. Bu, eyni zamanda, xərcləmələrin mövcud gəlirlilik səviyyəsinə uyğunlaşdırılması baxımdan vacibdir. Funksional və təşkilati xərc maddələri üzrə büdcə xərclərinə tavanların tətbiqi isə büdcə xərcləmələrində səmərəliliyin daha da yüksəlməsinə gətirib çıxaracaq.

Sənəd ölkəmiz üçün strateji əhəmiyyət daşıyan dövlət borclarının idarə edilməsi sisteminin daha da təkmilləşdirilməsini nəzərdə tutur. Belə ki, dövlət borcunun idarə edilməsi və aşağı səviyyədə saxlanılması məqsədilə qısa, orta və uzunmüddətli dövr üçün dövlət borcunun idarə edilməsi strategiyası işlənib hazırlanacaq. Bu, dövlət borclarının arzuolunan səviyyədə saxlanması və idarəedilməsinin daha təkmilləşdirilməsi baxımdan vacib islahatdır.

Neft gəlirlərindən istifadəni tənzimləyəcək fiskal qaydaların qəbulu da sənəddə nəzərdə tutulur. Gözlənilir ki, bu daha çox Norveç modelində nəzərdə tutulduğu kimi, Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərdə yeni qaydaların müəyyənləşdirilməsinə səbəb olacaq. Bu isə dövlət gəlirlərinin formalaşmasında neft sektorundan asılılığın azaldılması baxımdan vacibdir.

Tədbirlər Planında, həmçinin işçilərin əmək hüquqlarının qorunması da vacib istiqamətlərdəndir. Belə ki, işçilərin sayı və ya ştatları ixtisar edildikdə, işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilməzdən əvvəl ən azı iki aylıq rəsmi xəbərdarlıq müddəti ilə əlaqədar tələbin iş stajından asılı olaraq diferensiallaşdırılması ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi nəzərdə tutulur. Bu isə o deməkdir ki, iş stajından asılı olaraq işçinin bu kontekstdə hüquqları müəyyənləşəcək. Eyni zamanda, işsizlikdən sığorta sisteminin tətbiq edilməsi və inkişafı da əsas islahatlardan biridir. Sənədə əsasən, iş stajından asılı olaraq işdənçıxarma müavinətinin diferensiallaşdırılması, işsizlikdən sığorta sisteminin tətbiq edilməsi, işçilərə işdən çıxarıldığı gündən yeni işə düzələn günədək ikinci və üçüncü aylar üçün ödənilən orta aylıq əməkhaqqının işsizlikdən sığorta ödənişi ilə əvəz edilməsi ilə bağlı yeni qanunvericilik aktının hazırlanması, mövcud qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi həyata keçiriləcək. Bu isə işdən azad edilən işçilərin bu sığortadan istifadə edilməsi və yeni iş tapanadək sosial müdafiəsinin gücləndirilməsinə gətirib çıxaracaq.

Beynəlxalq praktikaya uyğun olaraq, məcburi dövlət sosial sığorta haqlarının strukturunda işçi ilə işəgötürən arasında nisbətlərə yenidən baxılması, işəgötürənin payının bu nisbətdə mərhələlərlə azaldılması və işçinin payının artırılması nəzərdə tutulub. Belə ki, mövcud qanunvericiliyə əsasən 22 faizlik sosial ödəniş işəgötürən tərəfindən həyata keçirilir. Bu isə bir sıra hallarda işəgötürəni işçi ilə əmək müqaviləsi bağlamağa stimullaşdırmır. Nəticədə gizli mühasibatlığın yaranmasına səbəb olur. Bu ödənişlərin inkişaf etmiş dövlətlərdə olduğu kimi işəgötürən ilə işçi arasında mərhələli şəkildə bölüşdürülməsi əmək müqavilələrin bağlanmasına stimul yaradacaq.

Tədbirlər Planına uyğun olaraq vergi ödənişlərinin sayının 6-dan 5-ə endirilməsi həyata keçiriləcək ki, bu da vergiödəyiciləri üçün prosedurların daha asanlaşmasına səbəb olacaq. Eyni zamanda, vergiödəyicisi artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının geri qaytarılması üzrə elektron müraciətdən istifadə edə biləcəklər. Bu isə həmin vəsaitlərin vergiödəyicisinə ödənilməsi mexanizminin təkmilləşdirilməsi və sadələşdirilməsinə imkan verəcək.

Sənəd Azərbaycanda Rəqabət Məcəlləsinin qəbul olunmasını da nəzərdə tutur. Bu isə Avropa qanunvericiliyinə uyğunlaşdırma ilə əlaqədar müddəaların qanunvericilikdə təsbit olunması ilə yanaşı yerli bazarda rəqabətin müdafiəsi və gücləndirilməsi baxımından olduqca vacib islahatdır.

Elektrik təchizatı şəbəkəsinə qoşulmaq üçün prosedurların sayının 7-dən 3-ə qədər azaldılması da tədbirlər planına daxildir. Eyni zamanda, yeni islahatlardan sonra elektrik şəbəkəsinə qoşulma müddəti 69-dan 25 günədək azalacaq. Bu isə vətəndaşların daha qısa zamanda elektrik şəbəkəsindən istifadə etməsinə səbəb olacaq.

Tikintiyə icazə sisteminin da sadələşdirilməsi tədbirlər planında əks olunmuşdu. Hazırda tikintiyə icazə almaq üçün 18 prosedurdan keçməklə 203 gün tələb olunur. İslahatlardan sonra prosedurların sayının 10-dək, tələb olunan vaxtın isə 80 günə endirilməsi nəzərdə tutulur. Bu, həm prosedurların azaldılması, həm də elektron xidmətlərdən istifadə hesabına baş verəcək.

Tədbirlər Planında səhiyyə, təhsil sektorunda islahatların dərinləşdirilməsi daxil olmaqla əksər iqtisadi sferalarda innovativ yeniliklərin tətbiqi nəzərdə tutulur. Göründüyü kimi, Azərbaycan Prezidentinin imzaladığı yeni sənəd post-neft dövrünün çağırışlarına uyğun olaraq islahatların dərinləşdirilməsində yeni mərhələ kimi qiymətləndirilir.

## Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

***İyunun 5-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov iclası açaraq gündəlik barədə məlumat verib. Gündəliyə “Terrorçuluğa qarşı mübarizə haqqında”” Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi daxildir.***

Dəyişiklik “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununu “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə təklif edilir. Həmin Qanunun 3.4.4-cü maddəsinə görə əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əməkhaqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar yalnız nağdsız qaydada ödənilir.

“Terrorçuluğa qarşı mübarizə haqqında” Qanuna təklif edilən digər dəyişikliyə əsasən isə sənədin birinci maddəsində dəyişikliklər ediləcək. Layihəyə əsasən “terrorçu” və “terror təşkilatı” anlayışları genişləndirilir. Belə ki, “Terrorçu” dedikdə hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən və ya bu cür aktları hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən fiziki şəxsdir.

“Terror təşkilatı” isə hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən, terror aktlarını hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən terrorçu şəxslərin qrupu və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilatdır.

# Turizmin inkişafına böyük təkan olan məkanlarımız erməni işğalı altındadır

***Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, yeni otellərin inşası, müxtəlif rayonlarda təşkil edilmiş istirahət zonaları ölkəmizdə turizmin inkişafına təsir edən amillərdəndir. Statistik rəqəmlərin ilbəil dəyişməsi, bizə deməyə əsas verir ki, Azərbaycanda turizm sektorunun inkişafında zəruri hesab olunan imkan və şərait mövcuddur. Təbii ki, Azərbaycanın təbiəti - flora və faunanın rəngarəngliyi, iqlim, istirahər üçün zəruri hesab olunan amillər ölkəmizi daha zəngin və cəlbedici edir. Bu gün turizmin inkişafından danışarkən, Azərbaycanın ayrılmaz ərazisi olan Dağlıq Qarabağdan söz açmaya bilmərik. Əminliklə deyə bilərik ki, zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz.***

Bəs bu gün işğal altında olan ərazimizdə hansı proseslər baş verir? Məlumdur ki, tarixi kökü olmayan və bu ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər qəddarcasına Dağlıq Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsini dağıdıb, bir sözlə, regionun turizm infrastrukturunu tamamilə məhv ediblər. Dünya ölkələri tərəfindən qəbul olunmuş konvesiya, qərar, bəyanat və qətnamələrə əməl etməyərək, işğal olunmuş ərazilərdə böyük əhəmiyyətə malik olan abidələrin əksəriyyətini məhv etmişlər. İşğalda olan Azərbaycan torpaqlarında ağır hərbi-texnikanın yerləşdirilməsinin nəticəsi olaraq, torpağa çökən kimyəvi maddələr bu ərazilərdə ekoloji mühitin və tarazlığın pozulmasına gətirib çıxarıb. Mürahibə dövründə bu ərazilərə çoxlu miqdarda atılan mərmilər, basdırılmış minalar ekolji mühitin zəhərlənməsinə və çirklənməsinə birbaşa səbəb olan amillərdir. Müharibənin törətdiyi əngəlliklər azmış kimi, dağ meşələri ucdantutma qırılaraq qonşu ölkələrə daşınır, nadir bitki və heyvanların kökü kəsilir.



Artıq işğal altında olan Dağlıq Qarabağın ətrafındakı Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının əraziləri əkilib-becərilmir və ona görə də, böyük ekoloji fəlakət yaşanılır. Təbiətə qarşı olan ermənilərin amansızsızlıq aksiyası onların Azərbaycan ərazilərinə qarşı qısqanclığını, iddialı mövqedən çıxış edib, özünəməxsus formanı tətbiq etməsi ilə yanaşı, bir məntiqin də gerçəkliyini təsdiqləyir. Bu, ermənilərin Qarabağ ərazisində müvəqqəti olduqlarını təsdiqləyən faktordur. Mənbələrdə göstərilir ki, ermənilər təbii ehtiyatlardan və faydalı qazıntı yataqlarından vəhşicəsinə istifadə edirlər. Asan istifadə edilə bilən mineral sular, müxtəlif texniki materiallar və ehtiyatlar daha çox mənimsənilir. Qeyri-qanuni bir şəkildə Dağlıq Qarabağı işğalda saxlayan, ekoloji şəraitin qorunması haqqında beynəlxalq təşkilatlar qarşısında heç bir məsuliyyət daşımayan ermənilər ekoloji mühitin də kəskinləşməsinə gətirib çıxarıblar. İşğal olunmuş rayonlarda 152 ədəd ağac növü, 13197,5 ha qiymətli meşə sahələri və 5 ədəd geoloji obyekt qalmışdır. Adı “Qırmızı Kitab”a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə kütləvi surətdə qırılaraq, mebel istehsalı üçün Ermənistana göndərilir. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bunun arxasında ermənilərin utopiyaları, eləcə də, xalqın tarixinə qarşı təcavüz planı dayanır.

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan “Daş-başı” və “Leşkar” meşələrində ermənilərin yanğın törətməsi də hər kəsə bəllidir. “Leşkar” meşə sahəsində isə yararlı ağacları tam qırıb-aparıblar. Tikinti materialı kimi Ermənistan Yunanıstana və İrana ixrac etdiyi ağac materialını istehsal etmək imkanında deyil. Erməni işğalında olan ərazilərdə erməni ekolji genosidi davam etdirilir. Azərbaycanın işğal altında olan ərazilərinin simasını dəyişib xarabalığa çevirən ermənlər öz milli xüsusiyyət və tələbatları çərçivəsində bu məkanlarda ab-hava yaratmaqla, vəhşilik missiyalarını həyata keçirirlər. Dünya şöhrətli qırmızı palıd erməni işğalındadır. Laçın dövlət yasaqlığı da erməni işğalçılarının əlindədir. Yasaqlıqda cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır.

Dağlıq Qarabağ ərazisində yerləşən alban-xristian abidələri ermənilər tərəfindən mənimsənilir və erməni mədəniyyət abidələri elan edilir. Dağlıq Qarabağ ərazisində, həm də ona sərhəd olan və ermənilər tərəfindən hazırda işğal olunmuş zonada külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikintilər, orta əsr qəbiristanlıqları, məscidlər və s. müsəlman abidələri yaxın zamanlara qədər mövcud idi. Hazırda bu ərazilər Azərbaycanın nəzarəti altında olmadığından, bu abidələrin indiki vəziyyətindən dəqiq məlumat yoxdur. “Bu gün işğal olunmuş ərazilərimizdə bütün tarixi abidələr və tikililərimiz Ermənistan tərəfindən dağıdılıb, məscidlərimiz yerlə yeksan edilib”, - deyən Azərbaycan Prezidenti İlham Əliyev Bakıda, şəhərin mərkəzində erməni kilsəsinin yerləşdiyini və bizim onu təmir etdiyimizi vurğulayıb. Amma Ermənistan isə işğal olunmuş ərazilərdə bizim tarixi və dini irsimizi məhv edib: “Bu fotoşəkilləri internetdə tapmaq mümkündür. Bununla yanaşı, ATƏT işğal edilmiş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərib və onların hesabatlarında da ərazilərin viran olunması öz əksini tapıb”.

Ermənistanın hərbi təcavüzü nəticəsində, işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hazırda hərbi məqsədlər kimi istifadə edilərək, qəsdən dağıdılır.

İşğalçılar genişmiqyaslı, qeyri-peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır və qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş Qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri qalmışdır. Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar vardı.

Qeyd olunanlardan Bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Qarabağın işğal altına düşməsi Azərbaycanın torpaq və ərazi itkisi ilə yanaşı, bir sıra iqtisadi-sosial və mədəni problemlərlə üzləşməsinə də gətirib çıxarıb. Qarabağ torpağının işğalda qalması nəticəsində, böyük bir turizm potensialı, əvəzsiz flora və fauna məhv edilir. Azərbaycanın tarixi mədəniyyət mərkəzlərindən biri olan Qarabağ ərazisi xarabalığa çevrilir, ermənilərin iyrənc, məkrli siyasəti nəticəsində ekoloji mühiti yararsız hala salınır ki, bunun da bərpasına və yenidən yaşayış və həyat səviyyəsinin normal vəziyyətə salınmasına neçə-neçə onilliklə tələb olunur.

Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində qalması Azərbaycanın iqtisadi inkişafına və onun turizm imkanlarının genişlənməsinə zərbə vurur.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

---



## Çaqqal ulayaraq, kaftar tayını necə tapdı?

**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

***Azərbaycanlıların və bir çox erməni siyasi-ictimai xadimlərinin, eləcə də, digər xalqların nümayəndələrinin qoşulduğu və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli üçün xalq diplomatiyası kontekstində hazırlanan Sülh Platforması ətrafında yaşanan olaylar getdi dirəndi AXCP sədri Əli Kərimliyə. Niyə, hansı səbəblərə görə? Onu da deyəcəyəm. Bəli, bu ölkədə haraya daş atsan, gedib Ə.Kərimliyə dəyəcək. Hansı səmtə qırmaq atsan, gedib Ə.Kərimlinin burnuna ilişəcək. Hansı kolu qaldırsan, yenə də dibindən, məhz Ə.Kərimli çıxacaq. Köhnə teletamaşalarımızın birində erməni Qıdı kirvənin “Bizim Kambar bela Kambardı” ifadəsi, indi bizim Ə.Kərimliyə də aid olub - bizim Ə.Kərimli də belə Ə.Kərimlidir...***

### Sən saydığını say, gör Vaanın fələyi nə sayır...

Erməni kirvəsi demişkən, deyəsən, AXCP sədri özünə elə, köhnə zamanlarda olduğu kimi, təzə bir erməni kirvə tutub - Vaan Martirosyan adlı erməni “dissidentini”...Bu həmin Vaandır ki, başılovlu vətəni Ermənistanı tərk edərək, azyaşlı uşağı və hamilə arvadı ilə Azərbaycana sığındı. Hətta Azərbaycana gələr-gəlməz, Xocalı Soyqırımı abidəsinin önünə gül dəstələri düzərək, hazırkı Ermənistan hakimiyyətinin rəhbərliyini genosid törətməkdə ittiham etdi.

Ancaq bir müddət sonra üçüncü ölkəyə - Ukraynaya köçdü və...

Anidən sarkisyansevərlər dəstəsinə qoşularaq, Bakı səfərinin, Azərbaycanda etdiyi etiraflarının səhv olduğunu bəyan edərək, necə deyərlər “...yemişlik” etməyə başladı. Təbii ki, erməni xüsusi xidmət orqanlarının onu yenidən “verbovka” etdikdən sonra. Ancaq sən saydığını say, gör Vaanın fələyi nə sayır?!

### Əli Kərimli “Artsax Ermənistanın tərkib hissəsi olmalıdır” deyən dönük Martirosyana qucaq açıb

Əslində, V.Martirosyanın fələyinin də kələyi kəsilibdir desək, yanılmarıq. Çünki bu dəfə o, erməni xüsusi xidmət orqanları tərəfindən “verbovka” olunmaqla yanaşı, hətta AXCP sədri Ə.Kərimli tərəfindən də ələ alınıb. Burada isə təəccüblü heç nə yoxdur. Ya erməni kəşfiyyatı olsun, ya da Ə.Kərimli - ikisi də eyni zaddır...Bir də ki, cəbhəçilərin sədrinin erməni dəyirmanına su tökməsi birinci hal deyil ki...

Məsələ ondadır ki, V.Martirosyan Eynulla Fətullayevlə yazışmalarının kopiyalarını Ə.Kərimliyə yollayıb və AXCP sədri də buna görə Martirosyana tribuna verib (?!-R). Adamdan soruşmaq lazımdır ki, sən hansı üzlə erməni kəşfiyyatına satılmış bir erməniyə tribuna verirsən? Axı Martirosyanın dönüklüyündən sonra ona inanmaq, ümumiyyətlə olmaz! Ancaq Ə.Kərimli artıq Azərbaycanın ədalətli mövqeyini deməyən, əksinə, “Artsax Ermənistanın tərkib hissəsi olmalıdır” deyən dönük Martirosyana qucaq açıb. Bax, məsələ də budur. Necə deyərlər, çaqqal ulayaraq, öz kaftar tayını tapıb...

# Anti-Azərbaycan qüvvələrin təxribatları ifşa edilir

*Yaxud Gürcüstanla Azərbaycan arasında olan isti münasibətləri pozmaq və iki dost ölkə arasında gərginlik yaratmaq cəhdləri iflasa məhkumdur*

***Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsinin mümkünsüzlüyü ölkəmizin yeri və rolunun göstəricisidir. Azərbaycan, Ermənistan istisna olmaqla, bütün region ölkələri ilə qarşılıqlı maraqlara, əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan mehriban qonşuluq siyasəti həyata keçirir. Bu bir faktdır ki, Azərbaycan Cənubi Qafqaz regionu iqtisadiyyatının 85 faizinə sahibdir. Ən əsası Cənubi Qafqaz regionunun və dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir.***



Hər bir məsələnin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsində maraqlı olan ölkəmiz heç bir dövlətin daxili işinə müdaxilə etmir, eyni zamanda, öz daxili işinə müdaxiləni də yolverilməz hesab edir. Azərbaycan hər zaman anti-Azərbaycan qüvvələr tərəfindən belə müdaxilələrlə üzləşir. Səbəbləri isə bəllidir. Ölkəmizin iqtisadi uğurları, beynəlxalq münasibətlər sistemində artan mövqeyi, istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin inkişafı, beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi qəbul edilməsi, ən əsası dünyada söz sahibinə çevrilməsi uğurlarımızı həzm etməkdə çətinlik çəkən qüvvələr tərəfindən qısqanclıqla qarşılanıb, müxtəlif yollarla daxili işimizə cəhdlər göstərilib.

Bəzi xarici anti-Azərbaycan dairələr, xüsusilə də, Ermənistan və erməni lobbisi uzun illərdir Gürcüstanla Azərbaycan arasında olan isti münasibətləri pozmağa və iki dost ölkə arasında gərginlik yaratmağa cəhd göstərirlər. Təsadüfi deyil ki, həmin qüvvələr Gürcüstan ərazisini Azərbaycanın daxili işlərinə müdaxilə məqsədilə plasdarma çevirərək, öz çirkin niyyətlərini reallaşdırmağa çalışırlar. Gürcüstanın ərazisi anti-Azərbaycan qüvvə - Ermənistan və erməni lobbisi tərəfindən maliyyələşdirilən antimilli ünsürlərin fəaliyyət meydanına çevrilmiş və Azərbaycana qarşı istifadə olunmağa başlamışdı.

Azərbaycan və Gürcüstan hakimiyyətinin, hüquq-mühafizə orqanlarının birgə səyləri nəticəsində, həmin anti-Azərbaycan şəbəkəsi, onu dəstəkləyən dairələr, maliyyə təminatı və digər bu kimi məsələlər ifşa edilmiş, bu təxribatçı fəaliyyətin qarşısının alınması üçün konkret tədbirlər həyata keçirilir. "Jurnalist" Əfqan Muxtarlının qeyri-qanuni fəaliyyətinin qarşısının alınması və onun məsuliyyətə cəlb olunması anti-Azərbaycan şəbəkənin əsl simasını üzə çıxardı, bu prosesin iştirakçılarını ifşa etdi. Təsadüfi deyil ki, bu gün Ermənistan mediası və erməni lobbisinin təsir dairəsində olan xarici KİV-lər və təşkilatlar Ə.Muxtarlını ciddi-cəhdlə müdafiə etməyə, Azərbaycanın nüfuzunu ləkələməyə, habelə, Gürcüstan hakimiyyətinə təzyiq göstərməyə çalışırlar.

Bu gün həm Gürcüstan hakimiyyəti, həm də bu ölkənin vətəndaşları bütün bunların Azərbaycana qarşı növbəti təxribat oyunu olduğunu görür və təxribata uymurlar. Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq və dostluq münasibətlərinə xələl gətirmək istəyən qüvvələr tam əks-mənzərə ilə rastlaşır və qərəzli bəyanatlar verməkdən başqa bir işə görə bilmirlər. Anti-Azərbaycan qüvvələrin Gürcüstan vasitəsilə Azərbaycanın daxili işlərinə müdaxilə etmək və siyasi proseslərə təsir göstərmək cəhdi iflasa uğradı. Hər zaman qeyd edildiyi kimi, belə cəhdlərin baş tutması üçün əsaslar olmalıdır. Münasibətlərin yüksələn xətlə inkişaf etdiyi halda, buna kölgə salmaq, yalana həqiqət donu geyindirmək mümkünsüzdür.

Bütün bunlarla yanaşı, hər iki ölkə başçısının qarşılıqlı münasibətləri, əlaqələri bu gün Gürcüstan vasitəsilə Azərbaycanın daxili işlərinə və siyasi proseslərə təsir göstərməyə çalışan anti-Azərbaycan qüvvələrin cəhdlərinin nə qədər əsassız sabun köpüyündən başqa bir şey olmadığını təsdiqləyir.

***"Səs" Analitik Qrupu***

# Xarici qüvvələrə satılmış müxalifət

***Müxalif düşərgənin dağıdıcı qütbünün xarici təzyiq qruplarının təsiri altında olması və anti-Azərbaycan qüvvələrin mövqeli müəyyən dairələr tərəfindən maliyyələşdirilməsi məlum faktdır. Bu, artıq heç kəsə də sirr deyil. Ən əsası da dağıdıcı düşərgədə yer alan müxalif qüvvələrin daha çox ölkə xaricində özünə dəstək axtarması, məhz bununla bağlıdır. Ötən prezident seçkiləri ərəfəsində, məhz kənar təsirlər, məkrli niyyətlər çərçivəsində formalaşdırılan "Milli Şura"ya müxtəlif mənbələrdən 22 milyon manatdan çox vəsaitin daxil olması deyilənlərə əyani sübutdur. O da bəllidir ki, xarici sifariş əsasında yaradılan "Milli Şura"nın 6-7 ay keçməmiş parçalanması, bilavasitə korporativ maliyyə maraqlarının toqquşması fonunda baş verib. Lakin bu dağıdıcı, destruktiv qüvvələr ölkə daxilində özlərini siyasi cəhətdən tükəndirdikləri kimi, ölkə xaricində də etimadı çoxdan itiriblər.***



Məsələnin əsas maraq doğuran tərəflərindən biri ondan ibarətdir ki, indi xaricdə də dağıdıcı müxalifəti, ümumiyyətlə, saya salan və eşidən yoxdur. Çünki destruktiv düşərgənin üzdə olan simalarının, məsələn, elə AXCP sədri Əli Kərimlinin etiraf etdiyi kimi, hamını həmişə aldatmaq mümkün deyil. Necə ki, keçmiş Müsavat başqanı Arif Hacıyev KXCP sədri Mirmahmud Mirəlioğlunu artıq heç cür aldada bilmir. Eləcə də, Ə.Kərimli artıq kimisə aldadıb siyasi diletantlığa sövq etmək, başqalarının ümidlərini, arzularını öz maraqları naminə xərcləmək iqtidarında deyil.

Bütün bunlara rəğmən, diqqəti çəkən odur ki, onlar satmağa, satılmağa artıq öyrəşiblər və buna bir növ adətkar olublar. Bu mənada, onların təmsilçisi Cəmil Həsənlinin vaxtaşırı Avropaya və Amerikaya üz tutmasının heç bir praktik əhəmiyyəti yoxdur. Digər tərəfdən, bəllidir ki, müxtəlif Qərb ölkələrinə səfərlər, orada keçirilən görüşlər, tədbirlər kifayət qədər baha başa gəlir və ciddi maliyyə vəsaiti tələb edir. Elə isə təqaüdçü olan C.Həsənli bu vəsaiti haradan alır və görüşlər, tədbirlər adıyla sağa-sola xərclədiyi maliyyəni kimin və nəyin hesabına əldə edir? İstənilən halda, C.Həsənlinin ABŞ-da kimlərlə görüş keçirməsi bəllidir.

Dağıdıcı müxalifətin özünə də bəllidir ki, istər ölkə daxilində, istərsə də üz tutduqları və havadar axtardıqları Qərb ölkələrində onlara münasibət kifayət qədər mənfidir. Bu neqativ münasibəti və inamsızlığı isə onlar öz fəaliyyətləri ilə qazanıblar. Faktiki olaraq, destruktiv düşərgə antimilli dairələrə yarınmaqdan və dövlətçilik maraqlarına zərbə vurmaqdan başqa heç nəyə yaramır. Yəni onlar opponentlik xatirinə müxalifətçilik etməyə, ağa qara deməyə, sadəcə, öyrəşiblər. Bu, müxalifəti getdikcə zəiflədən və sıradan çıxaran başlca amilə çevrilib. Təbii ki, zəif olan, dağıdıcılığa, destruktivliyə meyil edən qüvvələr heç bir halda ciddi qəbul edilmir və belələri ilə əksər hallarda hesablaşmırlar. Əgər əvvəllər xaricdən gələn müəyyən siyasilər arada müxalifət liderləri ilə də görüşürdülərsə, son illərdə hər hansı belə bir görüşün baş verməsini kimsə xatırlamır.

Bütün bunların müqabilində destruktiv, bir neçə qütbə parçalanmış dağıdıcı müxalifətin siyasi iflası, siyasətdə tam aşınmış və çıxdaş olunmuş vəziyyətə düşməsi göz önündədir. Artıq hər kəs görür və bilir ki, Azərbaycanda köhnəlmiş, bir neçə yerə satılmış müxalifət adlananlar heç bir işə gərək deyillər. Bu səbəbdən, onlara Azərbaycan siyasətində qətiyyən yer yoxdur.

***Rəfiqə HÜSEYNOVA***

# Litva Rusiya ilə sərhəddə hasar tikir!

***İyunun 5-də Rusiya ilə Litvanın sərhədində qoruyucu hasar tikintisi başlayır. Litva Dövlət Sərhədini Mühafizə Xidmətindən verilən məlumata görə, bu ilin sonuna qədər sərhədin Litva tərəfində uzunluğu 44,6 kilometr olan hasar tikiləcək. Hasarın birinci sütunu Litvanın Şakyayski rayonunun Raminişkes kəndi hüdudlarında basdırılacaq. İşlərin ümumi dəyəri 1,335 milyon avro olacaq. Bu vəsait Litva büdcəsindən ayrılıb.***




Kalininqrad vilayəti ilə dövlət sərhədi boyunca hündürlüyü təxminən 2 metr olan metal seqmentlərdən ibarət hasar tikiləcək. Bu hasar Viştitis (Viştınets) gölünün yaxınlığında Litva, Polşa və Rusiya üçtərəfli dövlət sərhədlərinin kəsişmə nöqtəsindən başlayan sahələrdə hissə-hissə tikilməklə, Şakyayski və Vilkavişski rayonlarında Neman çayına qədər davam edəcək. 2020-ci ilə qədər Belarus ilə Litvanın sərhədində də hasar tikilməsi nəzərdə tutulur. Litvalı hüquq mühafizəçilərinin sözlərinə görə, bu hasarların tikilməsində məqsəd qaçaqmalçılığa qarşı mübarizəni gücləndirmək və qeyri-leqal miqrasiyadan qorunmaqdır.

# "Nar" rominqdə olanlar üçün əlverişli "Tətil" paketlərini təqdim etdi

***"Nar" rominqdə olan abunəçilər üçün əlverişli "Tətil" paketlərini təqdim etdi. Sərfəli internet paketləri sayəsində "Nar" abunəçiləri artıq xaricdə də özlərini evdəki kimi hiss edəcəklər. Bundan sonra səfərdə olarkən, Wi-Fi axtarmağa ehtiyac qalmayacaq. Səfərə çıxdıqda, "Nar"-ın "Tətil" paketlərindən birini sifariş edərək səyahət etmək olduqca sərfəlidir.***




Təklif çərçivəsində 200 Mb həcmindəki "Tətil - 2" və 600 Mb həcmindəki "Tətil - 5" paketlərinin qiyməti müvafiq olaraq 2 və 5 AZN təşkil edir. "Tətil" paketləri ABŞ, İsrail, Ukrayna, Gürcüstan, İran, Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan kimi ölkələri əhatə edir. İstifadə müddəti 15 gün olan paketlərdə hesablama intervalı 40 Kb təşkil edir. İnternet paketlərdən öncədən və sonradan ödənişli tariflərin istənilən abunəçisi istifadə edə bilər. Təklif həmçinin "Nar" data nömrələri üçün nəzərdə tutulub. Abunəçi istədiyi sayda paket sifariş edə bilər. Bu zaman internet trafikin istifadəsi sonuncu sifariş olunan paketin tarixinə əsasən hesablanır. "Tətil - 2" paketinə qoşulmaq üçün *777#102#YES, "Tətil - 5" paketinə qoşulmaq üçün *777#105#YES, paketdaxili internet balansını yoxlamaq üçün isə *777#20#YES kodunu yığmaq kifayətdir.

"Nar" rominq xidməti və tariflər haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

SİYASİ RAKURS

# Sabiq müsavatçı funksionerdən Arif Hacılıya ismarışlar - Müsavatın möhürü kimdədir?

*“Unutmamalıdır ki, vaxtilə siyasi plagiatlıqla məşğul olub”*



***Uzun illər Müsavat sıralarında təmsil olunmuş, hətta partiyanın müxtəlif strukturlarında funksioner kimi fəaliyyət göstərmiş və başqanlığa namizədliyini də vermiş Tural Abbaslı yenidən mətbuata çıxaraq, vaxtilə üzvü olduğu siyasi təşkilatın rəhbərliyini kəskin şəkildə ittiham edib. Hazırda “Ağ Partiya” adlı təşkilata sədrlik edən Abbaslı rəhbəri olduğu siyasi qurumun səhnədə aktiv olmadığını etiraf etsə də, Müsavatın bostanına daş atmağı da unutmayıb.***

## “1 ay içində 600 nəfər müraciət edib deməklə ucuz işlərlə məşğul olmuruq”

“Biz partiyamızı təsis edən ərəfədə cəmiyyətdə və siyasi səhnədə aktivlik vardı. Son zamanlarda isə müxalifət sıradan çıxmaq üzrədir”-deyə qeyd edən müxalifətçi partiya sədri Müsavata eyham vuraraq deyib: “Uzun illərdir fəaliyyət göstərən partiyalar var ki, bəlkə də media və sosial şəbəkədə bizdən daha az görünürlər. Bəzi partiyalar kimi pafoslu şəkildə “bizə 1 ay içində 600 nəfər müraciət edib” deməklə ucuz işlərlə məşğul olmuruq, milli-mənəvi dəyərləri özündə birləşdirən sağ-mərkəzçi partiya formalaşdırmaq niyyətindəyik”.

“Ağ Partiya”nın sədri ənənəvi düşərgədə AXCP və Müsavat, eləcə də, digər partiyaların onların siyasi təşkilatlarının Türkiyədəki AK Partidən kopyalanması iddiasına da cavab verməyi unutmayıb. O, xatırladıb ki, bu gün özlərinə “lider” deyənlər unutmamalıdırlar ki, vaxtilə özləri siyasi plagiatlıqla məşğul olublar.

SİTAT: “Onlar narıncı rəngi “kopya”layanda demokratiya olur, Buşun şəkli ilə “vi vont demokrəsi” deyəndə, Avropa İttifaqı, ABŞ və Fransanın layihəsində iştirak edib söz azadlığından danışanda bu, təqlidçilik yox, ümumbəşəri dəyərlər olur? Qanı, dini və dili bir Türkiyə ilə əməkdaşlıq etmək onu yamsılamaq, ona yarınmaqdır? Müxalif düşərgənin ən çox güvəndiyi Qərb dövlətləri Azərbaycan hakimiyyəti ilə sıx əməkdaşlıq edir. ABŞ prezidenti artıq 2 dəfə məktub göndərib. Müxalifətin olduğu siyasi arenada isə savadsızlıq və qərəzlilik baş alıb gedir”.

## “Müsavatın möhürü Arif Hacılının əlində deyil”

T.Abbaslı Müsavat başqanı Arif Hacılını hədəfə alaraq, iddia edib ki, hətta bu gün müsavatçıların “lideri”nin partiya möhürü belə, onun özündə deyil: “Müsavatın əlində bu partiyanın möhürü olan adama aidiyyatı yoxdur. Özünə ateist deyən, milli dəyərlərimizi və türkçülüyümüzü inkar edən adam müsavatçı ola bilməz”.

Beləliklə, hazırda ənənəvi müxalifət düşərgəsində kəskin qalmaqalların yaşanmasına baxmayaraq və gərginliyin hökm sürməsi reallıqdır. Yeni yarana müxalifət partiyaları isə, məhz bənzər ismarışlarla köhnələri ənənəvi düşərgə sıralarından çıxdaş etməyə çalışırlar. Ancaq alınacaqmı? Yəqin ki, qarşıdan gələn növbəti seçki ilində biz hadisələri daha müfəssəl şəkildə görəcəyik.

***Rövşən RƏSULOV***

# Haqq nazilər, amma üzülməz!

*Xədicə İsmayıl ətrafında süni ajiotaj*



***Bu gün özünü mətbuata gah “araşdırmaçı-jurnalist”, gah da “hüquq müdafiəçisi” kimi təqdim edən Xədicə İsmayılın Əfqan Muxtarlını jurnalist kimi qələmə verməsi ictimaiyyətdə böyük narazılıq yaradıb. Sözügedən məsələ ilə bağlı açıqlama verən millət vəkili Elman Nəsirov bildirib ki, erməni diasporu, ermənipərəst və anti-Azərbaycan qüvvələr Ə.Muxtarlının həbsi ətrafında şou yaradırlar: “Həmin şəxslər Ə.Muxtarlının guya jurnalist fəaliyyətinə görə, həbs edildiyini iddia edirlər. Bu, kökündən yanlış fikirdir. Ə.Muxtarlı jurnalist kimi fəaliyyət göstərməyib. O, Azərbaycanda cinayət törətdiyi üçün məsuliyyətə cəlb edilən Xədicə İsmayılın cangüdəni kimi fəaliyyət göstərib. X.İsmayıl həbs olunandan sonra o, Gürcüstana qaçaraq, anti-Azərbaycan qüvvələrinə qoşularaq, Azərbaycan əleyhinə şüarlar səsləndirib”.***

Millət vəkili, onu da əlavə edib ki, məkrli qüvvələr dəfələrlə belə addımlar atıb, iki ölkə arasındakı dostluq münasibətlərinə xələl gətirmək istəyiblər: “Bunun üçün həmin qüvvələr müxtəlif vasitələrdən istifadə ediblər. Həmin üsullardan biri də Ə.Muxtarlıdır. Ə.Muxtarlının özü də həmin xəyanətkar, anti-Azərbaycan qüvvələrlə əlbir olan şəxsdir.

## Bəxtiyar Sadıqov: “Gürcüstan hakimiyyəti ermənipərəst qüvvələrin təxribatına uymur”

Millət vəkili Bəxtiyar Sadıqov bildirib ki, bu gün Ermənistan mediası və erməni lobbisinin təsir dairəsində olan xarici KİV-lər və təşkilatlar Ə.Muxtarlını cidd-cəhdlə müdafiə etməyə, Azərbaycanın nüfuzunu ləkələməyə, habelə Gürcüstan hakimiyyətinə təzyiq göstərməyə çalışırlar: “Ə.Muxtarlı həmin şəxslərin təsiri altında anti-Azərbaycan təbliğatı aparanlardandır. Təəssüf ki, bəzi anti-Azərbaycan qüvvələr bu cür cinayətkar şəxslərin müdafiəsinə qoşularaq, haqsız çağırışlar edirlər, onun jurnalistliyini önə çəkirlər. Amma əslində, bu belə deyil. Ə.Muxtarlının cinayət törətdiyi, Azərbaycan Cinayət Məcəlləsinin konkret maddəsilə ittiham olunduğu məlumdur. Ə.Muxtarlı həmin maddələrlə təqsirləndirilib və bu işi məhkəmə araşdıracaq. Onun bu cinayəti törədib-törətməməsi isə məhkəmə araşdırmasından sonra məlum olacaq”.

B.Sadıqovun sözlərinə görə, ermənilərin Ə.Muxtarlını müdafiə etməsi, onu göstərir ki, onun erməni və ermənipərəst qüvvələrlə güclü işbirliyi olub: “Azərbaycan qanunvericiliyinə əsasən, Azərbaycan vətəndaşının xarici ölkədən qrant alması qadağan edilib. Amma bu şəxslər, müəyyən yollarla xaricdən qrant almaqla, Azərbaycana qarşı təbliğat aparırlar. Ona görə də, həmin şəxslər həbs edilərkən, anti-Azərbaycan qüvvələr onları müdafiə edirlər. Azərbaycan hüquq-mühafizə orqanları isə bu cür halların qarşısını alır.

## Niyaməddin Orduxanlı: “Əfqan Muxtarlı jurnalist deyil, Xədicə İsmayılın “telexronitel”i olub”

BAXCP sədrininq müavini Niyaməddin Orduxanlı da bildirdi ki, bu gün Azərbaycanda fəaliyyət göstərən “5-ci kolon”un nümayəndələri bir neçə ildir ki, maliyyələşmə prosesini Gürcüstan vasitəsi ilə həyata keçirir: “Bilirisiniz ki, bir sıra qanunların qəbulundan sonra ölkəmizdə çirkli pulların daxil olması xeyli əngəllənib. Bu məcburiyyətdən radikal müxalifətin nümayəndələrinə, xüsusən də, Ə.Kərimliyə, X.İsmayıla və digər şəxslərə göndərilən pullar Gürcüstana göndərilir və bu adamlara yaxın şəxslər də çox asan yolla Gürcüstana gedib, bir gün ərzində QHT təsis edib, qeydiyyatdan keçirə bilirlər. Bundan sonra həmin QHT Gürcüstanın istənilən bankında hesab açıb vəsaiti nağd şəkildə götürə bilirlər. Bu adamın söz sahibinə çevrilməsi 2013-cü ildən sonra “5-ci kolon”un “bossu” sayılan X.İsmayılın “teloxranitel”i təyin olunandan sonra olub və dağıdıcı müxalifətin keçirdiyi mitnqlərdə də onun Xədicəni necə mühafizə etdiyi ilə bağlı sosial şəbəkələrdə şəkilləri yayılıb. X.İsmayıl həbs olunandan sonra bu adam Gürcüstanda anti-Azərbaycan şəbəkəsinin rəhbəri olub, X.İsmayılın tapşırığı ilə. Bu adamların hamısı Azərbaycanın milli maraqlarının əleyhinə fəaliyyət göstərən və ciddi-cəhdlə Azərbaycanda sabitliyin pozulması üçün əllərindən gələni əsirgəmirlər. Sosial şəbəklərdə də bunların bu cür fəaliyyəti açıq şəkildə görünür”.

Bütün bunlar isə, onu göstərir ki, yaradılan süni ajiotaj ənənəvi düşərgənin diqqəti öz üzərilərinə cəlb etmək maraqlarıdır. Ancaq onların bu maraqlarının özünü doğrultmayacağı bəri başdan görünür.

***Rəfiqə HÜSEYNOVA***

# “Qanunu pozan cəzasız qala bilməz”

*Təşkilat sədrləri Əfqan Muxtarlı olayının arxasında erməni lobbisinin dayandığını qeyd edirlər*





Son vaxtlar bəzi qüvvələr Gürcüstanla Azərbaycan arasında strateji dostluq əlaqələrini pozmaq üçün Əfqan Muxtarlı kimi xarici qüvvələrə işlədiyi artıq sübuta yetirilən ünsürlərdən istifadə etməyə cəhd edirlər. Faktlar ondan ibarətdir ki, Ə. Muxtarlı qaçaqmalçlıq yolu ilə Azərbaycana keçməyə cəhd edib. Amma bunu bəzi beynəlxalq təşkilatlar və ayrı-ayrı anti-Azərbaycan qüvvələr başa düşüb qəbul etmək istəmirlər. Bu, o deməkdir ki, ölkəmizə qarşı qərəzli münasibət eyni mərkəzdən idarə olunur? “Yurddaş” partiyasının sədri Mais Səfərli “Səs” qəzetinə açıqlamasında bildirdi ki, Ə.Muxtarlı qanuna müvafiq şəkildə həbs olunduğundan, onun ətrafında hay-küy qaldırmaqla istintaqa təzyiq göstərməkdən başqa bir şey deyil: “Qanun pozuntusu varsa, onda həmin məsələni siyasiləşdirmək düzgün deyil. Bu, siyasi etikaya uyğun gəlmir. Amma təəssüflər olsun ki, Ə.Muxtarlının həbsini siyasiləşdirmək istəyən və bununla da iki qonşu dövlət olan Azərbaycanla Gürcüstanın münasibətlərinə xələl gətirmək istəyən qüvvələr var. Buna heç bir halda yol vermək olmaz. Bir sözlə, bu məsələdə siyasi motivlər axtaran və bu motivləri öz siyasi təşkilatlarının maraqlarına uyğunlaşdıran və özünə imic qazanmağa çalışan qüvvələr Azərbaycanın milli maraqlarına ciddi zərbə vurmağa cəhd edirlər. Amma birmənalı şəkildə demək olar ki, həmin məkrli qüvvələr öz istəklərinə çata bilməyəcəklər. Çünki Azərbaycanla Gürcüstan arasında əlaqələr möhkəm əsaslara söykənir və bu əlaqələri heç bir məkrli qüvvə poza bilməz”.

Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da bizimlə söhbətində Ə.Muxtarlının həbs olunmasından sonra hay-küyün qaldırılmasının arxasında erməni lobbisinin və Azərbaycanın dağıdıcı müxalifətinin dayandığını söylədi: “Guya Ə.Muxtarlının həbs olunması demokratiyaya və insan hüquqlarının pozulmasına ziddir. Burada heç bir insan hüquqlarının pozulmasından söhbət gedə bilməz. Yəni istər media işçisi, istər, sıradan bir vətəndaş, istərsə də yüksək vəzifəli şəxs olsun, hər bir şəxs qanun qarşısında cavabdehdir. Heç kəs də bu qanunlardan kənar nə isə bir addım ata bilməz. Əgər qanunu pozmusansa, onda qanun çərçivəsində də cəzanı alacaqsan. Kimsə Ə.Muxtarl olayından yararlanaraq, Azərbaycana təzyiq edə biləcəyini düşünürsə, yanlışlığa yol verir. Çünki Azərbycan siyasi və iqtisadi cəhətdən inkişaf edən və dünyada yetərincə tanınan dövlətdir. Bu baxımdan, Azərbaycanla təzyiq dili ilə danışmaq qeyri-mümkündür. Bununla Azərbaycan - Gürcüstan əlaqələrinin pozulmasına nail ola biləcəklərini düşünənlər də səhvə yol verirlər”.

***GÜLYANƏ***

TƏRS BAXIŞ

# Engelin əngini əzmək...

***Bir neçə gündür ki, Avropa Parlamentinin lüksemburqlu deputatı Frank Engelin Ermənistanda Tatev Manukyan adlı erməni ilə nikaha girməsi barədə məlumatlar yayılıb. Həmn məlumatlarda bildirilir ki, nikah mərasimi Türkiyə ilə sərhəddə - Ermənistanın Ararat vilayətindəki Virap Xoru monastırında keçirilib. Üstəlik, yeni evlənən cütlüyün "xaç atası" Ermənistan müdafiə nazirinin müavini Artak Zakaryan olub. Məsələ heç də bu cütlüyün evliliyinin hansı maraqlar baxımından reallaşdırılmasında deyil.***

## Erməni arsızlığı qədər avropalı həyasızlığı

Məsələ ondadır ki, həmin bu avropalı deputat az öncə işğal altındakı Dağlıq Qarabağ torpaqlarına getmək arzusunda olduğunu bildirmişdi. Hələ bu, harasıdır? Avropa Parlamentinin deputatı, bu azmış kimi, Azərbaycana qarşı döyüşməyə (???!!!-R.N.) hazır olduğunu da həyasızcasına bəyan etmişdi.

"Bu, apreldəki dördgünlük müharibədən sonra idi. Bizim coşqun müzakirələrimizdən sonra Frank dedi: "Azərbaycanlılar bir millimetr də torpaq almayacaqlar, hətta mən hərbi forma geyinməyə məcbur olsam belə", - deyə onun erməni arvadı Manukyan yazmışdı. Erməni haxçisi avropalı deputatın



bu sözlərindən sonra ona ərə gedəcəyinə söz verib. Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycan tərəfindən beynəlxalq axtarışa veriləndən sonra Engel Azərbaycanın müvafiq orqanlarına və təmsilçilərinə həyasızcasına məktub da göndərmişdi.

## Engel bu etirafı etsə də, bir həqiqəti unudub

Ermənipərəst lüksemburqlu deputat Bakını "ona və Avropa Parlamentinin Qarabağın işğal zonasına baş çəkmiş başqa üzvlərinə qarşı qeyri-leqal hərəkətlərdə" ittiham edib. Məsələn, Engel yazıb ki, Azərbaycan Avropa Parlamentinin üç nümayəndəsini - onu, Eleni Teoxarusu və Yaromir Ştetini ittiham edir, yalnız o səbəbə görə ki, onlar "DQR"-də olublar. Engel iddia edib ki, beynəlxalq hüququn heç bir prinsipi "DQR"ə səfərləri qadağan etmir (?!-R.N.) və s. Beləliklə, elə erməni həyasızlığına sahib olduğu üçün erməni haxçisi ilə evlənən, üstəlik, Azərbaycanla müharibədə erməni tərəfində vuruşmaq istəyən Engel bu etirafı etsə də, bir həqiqəti unudub. Engel unudub ki, mümkün müharibə zamanı əyninə Ermənistanın hərbi formasını geyinib işğalçıların tərkib hissəsinə çevrilərsə və həmin vaxt boşboğaz avropalı əngi Azərbaycan əsgərinin yumruğuna tuş gələrsə onun əngi nəinki yerindən çıxacaq, hətta ovulacaq. Bax, onda heç bir Avroparlament deputatı Azərbaycana qarşı həyasızlıq edərək, əngi əzilərək məhv edilmiş Engelə görə haqq-hesab soruşa bilməyəcək! Bilməyəcək ona görə ki, onların psevdoermənı deputatları, bilavasitə, işğalçılıq siyasətinə qurşanıb və üstəlik, erməni terroru-nu dəstəkləyib. Engelin sadəcə əngi deyil, bütün vücudu, azad ediləcək torpaqlarımızda çürüyəcək!

## Əngini hazırla, Engel...

Tatev Manukyan adlı arvadı isə, onun barəsində hansısa Avropa ölkəsində ayrı bir avrodeputatın qucağında rahlanıb, əngi dağıdılmış Engel adlı əri üçün "esse" yazacaq...

Ancaq Engel əngi dağıdılmadan da Azərbaycanın əlinə keçə bilər. Məlum olduğu kimi, Engel və Avropa Parlamentinin daha iki deputatı Azərbaycanın işğal edilmiş ərazilərinə dəfələrlə qanunsuz səfər etdikləri üçün Azərbaycanın Baş Prokurorluğu tərəfindən beynəlxalq axtarışa veriliblər. Həta Engel Dağlıq Qarabağda separatçılar tərəfindən fevralda keçirilmiş psevdoreferendumda müşahidəçi kimi də iştirak etmişdi. Deyəsən, onun vaxtı, həqiqətən də çatıb. Əngini hazırla, Engel...

***Rövşən NURƏDDİNOĞLU***

# "Nida"çı gənclərdən rəzalət!

*Sosial şəbəkələrdə xəstə adı ilə insanlardan pul yığırlar*

***Facebook və Twitter istifadəçisi olan insanlar bilirlər ki, bu sosial şəbəkələrdə hansısa xəstənin fotosunun paylaşılmasının və insanlardan yardım istənilmələrinin tez-tez şahidi oluruq. Lap yaxşı! Hər birimizin insanlıq borcumuzdur ki, gücümüz çatan qədər, həqiqətən xəstə olan, imkanı olmayan insanlara, az da olsa, kömək edək. Necə ki, insanlarımız bunu edirlər, ehtiyacı olan xəstələrin müalicə xərclərinə və dərmanlarına yardım göstərirlər. Sosial şəbəkələrdə xəstənin adına açılmış bank hesabı və hesabın kodu da göstərilir.***

Məsələ bundadır ki, insanların humanistliyindən, kövrəkliyindən istifadə edənlər də az deyildir. Bir neçə gün bundan öncə, Ələsgər Quliyev adlı facebook istifadəçisi bir cavan oğlanın şəklini paylaşıb yazmışdı: "Ağır xəstədir və yardıma ehtiyacı var. Hər kəsin heç olmasa, 1 manat köçürməsi xahiş olunur...". Səhifədə bank hesabını da qoyub insanlardan bu "xəstə" üçün yardım istəyirmiş. Lakin sonda məlum olub ki, bu "xəstə", əslində, AXCP-nin üzvüdür. Digər bir yardım istəyən Ə.Quliyev isə "Nida"çıdır. Sadəcə, insanların heysiyyəti ilə oynamaq, havayı pul qazanmaq üçün belə bir addım ataraq özlərini "xəstə" görkəminə salıb, insanlardan pul dilənirlər. Yadınızdadırsa, bir neçə il bundan öncə, Avropa dövlətlərinin birində bu yolla bir nəfər "xəstə" donuna girərək, 1 milyon dollar pul əldə etmişdi. Yəqin "Nida"çı gənc də bu xəbəri yeni eşidib, həvəslənib və yersiz bir metoddan istifadə eləmək qərarına gəlib.

Sosial şəbəkələrdə insanların heysiyyəti ilə oynayaraq, pul "qazanmaq" istəyənlərin saxtakarlıq etməkdə əsl məqsədi nədir? Məsələ ilə bağlı "SƏS" qəzetinə açıqlama verən psixoloq Nərminə Əliyeva bildirib ki, artıq sosial şəbəkələr bir çox insanların həyatının ayrılmaz hissəsinə çevrilib: "Düzdür, bunun özü də normal hal deyil, insanlar real aləmdən uzaqlaşırlar, hadisələrə açıq gözlə deyil, virtual şəkildə baxırlar. Bu isə insanı cılızlaşdırır, onun reallıq hissinin itirilməsinə səbəb olur. Təsəvvür edin ki, bir "xəstə" fotosu qoyursan, hesab açırsan və hər kəs gücü çatan qədər ora yardım edir. Bu, soyğunçuluqdur. Onu da bildirmək istəyirəm ki, bu tip addımlar atan insanlar heç də psixoloji cəhətdən tam sağlam sayıla bilməzlər. Onlarda hansısa dərəcədə şizofrenikliyin əlamətləri də var, eyni zamanda, digər xəstəliklərin olması da mümkündür. Belə insanlar reallıqla qətiyyən barışmırlar, hər şeyi insanların iradəsi yox, öz ürəklərincə görmək istəyirlər, insanların faciəsi, hissləri beləsi üçün önəmli deyil. Həmçinin, həddsiz dərəcədə əsəb pozğunluğu yaşayırlar".

Bu bir faktdır ki, sosial şəbəkələrdə soyğunçuluqla məşğul olmaq "Nida"çıların ilk yarıtmaz addımı deyil. Bir zaman-zaman müxtəlif yersiz, heç bir məntiqə sığmayan, anti-Azərbaycan addımları ilə gündəmi zəbt etməyə çalışıblar. Onu da qeyd etmək yerinə düşər ki, "Nida"nın üzvü olanlar gənclərin heç bir, öz ailəsi ilə yaşamır, onlar (qızlar və oğlanlar) kirayə tutulan evdə kollektiv şəkildə yaşamağa üstünlük verirlər. Həmçinin, həddindən artıq açıq-saçıq, biədəb geyimləri ilə diqqət çəkən bu gənclər özlərini "müxalifət" kimi təqdim etməyə çalışırlar. Ötən ilin aprel hadisələri zamanı isə "Nida"çılar, nəinki gözə dəymədi, heç sosial şəbəkələrdə də paylaşımlarının şahidi olmadıq. Heç bir təhsili, savadı, qabiliyyəti olmayan bu gənclər hansısa dağıdıcı siyasi təşkilatlara qoşularaq "siyasi mühacir" kimi ölkədən getməyə çalışırlar. Bunun üçün də iğtişaşlar yaradaraq, hüquq-mühafizə orqanlarını təxribata çəkmək və özlərinin "təzyiq"ə məruz qaldıqlarını iddia edərək, xarici ölkələrdə vətəndaşlıq izni almaq istəyirlər.

***Samir***



# Azərbaycanda nə qədər müxalif siyasi "bomj" var?

**SAMİR**

***İnsaf üçün deyim ki, siyasi "bomj"luq dəhşətlidir, 1 litri 70 qəpik olan "çubuş"dan guppuldadıb, küçələrdə sərgərdan gəzən, skamyalarda "tirtap" olan, danışanda ağzına söz ala bilməyən, ayağının altındakı torpağı belə incitməyən bədbəxt adamın "bomj"luğunun özündən başqa, kimsəyə ziyanı yoxdur. Nə qədər vurursa-vursun, özü bilər...***

Ancaq siyasi "bomj"luq çox pisdir... Bir var araqdan vurub, orda-burda sülənəsən, bir də var ki, düşük ideyalarla başını gicəlləndirib, hər gün bir siyasi düşərgədə veyillənəsən... Məsələn, bir nəfər izah eləsin görək, Xədicə İsmayıl konkret hansı siyasi partiyanın üzvüdür, yaxud kimə və nəyə xidmət edir? Harda aş, orda başdır bu "qadın...". Gah "Milli Şura"da, gah da Müsavatda veyillənir, hələ "ədalət" damarı tutanda, mitinqlərdə iştirakını demirəm. Gah da ki, "Nida"çılara mənəvi "ana"lığın detallarını izah eləyir. Bude, aylıq 500 manat maaş verdiyi "Nida"çılar olduqca aqressiv olublar, biri mənə yazıb ki, əcəb eləyib Xədicədən maaş alırıq. Mən "bomj"da bu qədər pulun olduğunu ilk dəfədir görürəm. Hələ mən Məsud adlı "Nida"çını demirəm. Maşallah, gələcəkdə gör nə qədər siyasi "bomj"larımız olacaq. Sələflərinə- İbrahim İbrahimliyə, Sülhəddin Əkbərə, Rəsul Quliyevə (o özü həm də siyasi "bomj" yetişdirir), Cəmil Həsənliyə sadiqdirlər.

Ələlxüsus da, siyasi "bomj"luğun C.Həsənli ilə bağlı olan tərəfləri daha maraqlıdır. Baxın: 1989-cu ildə AXC-yə üzv olur, 1992-ci ildə Müsavat partiyasına yazılır. Yəni 1992-ci ildə C.Həsənlinin cibində iki partiyanın bileti var idi. 1993-cü ildə hər iki partiyadan çıxır, lakin üzvlükdən çıxmaqla bağlı ərizəni təkcə Müsavata təqdim edir. Ölkədə sürətlə dəyişən ictimai-siyasi vəziyyəti dəyərləndirə bilmədiyinə görə, bir müddət sonra, haqqında danışılanlara cavab vermək üçün bəyan edir ki, "mən cəbhəçiyəm...". Ancaq bundan bir gün sonra, onun digər partiyalara da marağının olması ilə bağlı məlumatlar qəzetlərdə dərc olunur. 2005-ci ildə AXCP-dən də istefa verir, deputat kürsüsündə oturub ölkəmizdə aparılan işlərdən ağızdolusu danışır. 4 il sonra isə, seçkiyə bir il qalmış, yenidən qımıldanır, "ziyalılar forumu" adlanan quruma üz tutur və 2013-cü ildə ordan da qaçır. 2013-cü ildə "Milli Şura"ya gedir... Bu, nə tərcümeyi-haldır, bu, nə rəzalətdir? Siyasi "bomj"luğun bundan ötə nümunəsi varmı?

Vallah, düz deyirəm, bir nəfər tapılsaydı, Aslan İsmayılovu da bu pis vərdişdən çəkindirərdi. Mən həmişə demişəm, bir daha deyirəm, kim ki deyir ha, guya "aslanın dişisi olmaz", yalan söhbətdir, Aslanın dişisi də olurmuş. Bunun "bomj"luğu, ümumiyyətlə, ayaq atıb yeriməyinə imkan vermir. C.Həsənli heç olmasa bu skamyadan durub, o birisində otura bilir. Aslanın dərdi lap ağırdır. Facebookda nə qədər kərpicbaş gədələr varsa, hamısını başına yığıb, özünü "vətənpərvər" donuna salıb. Kişi kimi çıxsın, desin ki, indiyə qədər bircə nəfər kasıbın məhkəmələrdə hüquqlarını müdafiə edib... Bu adamın məhkəmələrdə müdafiə etdiyi şəxslərin hamısı iş adamlarıdır, varlılardır. Elə "biznes-ledilərdən" birini də şantaj eləyib, şəhərin ən yaxşı yerində özünə ofis almadımı?

# Konfutsinin yüksək vəzifə, nəciblik, nəzakət və insan haqlarına münasibəti

Müşfiq Ötkünün "Tanımadığımız Konfutsi" əsərində göstərilir: "Konfutsi deyirdi:

- Nəcib kişi mərifətin qayğısında olar, balaca adam yaxşı yerləşmək barədə düşünər. Nəcib kişi qanun qayğısında olar, balaca adam imtiyazları düşünər.

Məsələn:

Nəcib müəllimin işində əsas cəhət tələbələrinə faydalı olmaqdır;

Adi müəllim üçün əsas cəhət prestijli yerdə işləməkdir;

Nəcib müəllim üçün əsas cəhət həqiqətə qulluqdur;

Adi müəllim üçün əsas cəhət məvacibin böyüklüyüdür.

Müəllim söylədi:

- Maddi maraq dalınca düşən özünə qarşı böyük narazılıq oyadacaqdır.

İnsan balaca adam ömrü yaşamaq üçün yaradılmayıb. Balaca adam libası insanın əynində gülünc görünür. Komediya janrının başlıca mənbəyi də bu məqamla bağlıdır. Balaca adam olmaq - gülüncdür.

İnsan böyüklük - həqiqətə, yüksək amallara xidmət etmək üçün yaradılıb. Bunu bacaran insanlar bəşəriyyətin fəxr ünvanlarıdır. Sokrat, Russo, Tolstoy, Qandi.

Budur, insan ömrünün mənasını maddi uğura bağlayır. Elmsizi də, elmlisi də... Zatən, elmə də daha çox var qazanmaq imkanı əldə etmək üçün can atarlar, adətən. Varlanmaq eşqiylə elm öyrənməyə girişənlər həqiqəti tapmırlar. Maarifçilik ideyası, beləcə, iflas edildi.

Maddi maraq dalınca düşən insan özünə qarşı Göyün də, Yerin də narazılığını oyadacaqdır...

Müəllim deyərdi:

- Əgər dövlət ritualların buyurduğu nəzakət qaydası ilə idarə oluna bilirsə, nə çətinlik ola bilər ki? Ritual nəyə lazımdır, əgər nəzakət qaydası ilə dövləti idarə etmək mümkün deyilsə?

Nəzakət - başqalarının da göyün qulluğunda olduğunu dərk etmə şüuruna əsaslanır. Nəzakət, həyata dərin sayğının ifadəsidir. Həyata sayğı duymayan, göyün müqəddəs həqiqətini dərk edə bilməz və bu mərifət rituallar vasitəsi ilə tərbiyə edilir. Rituallardan mərifət qazanılmırsa, onlar rəqs hərəkətlərindən başqa bir şey deyillər. Ritualllarda qazanılan mərifət kainatın qapılarını açmağa qadir sirr deyilsə, onda onlar nəyə lazımdırlar ki?

Konfutsi əmindir ki, dövlət ritual mərifəti ilə idarə olunmalıdır. İdarə etdiyin insanlar sənin yox, göyün əmrindədirlər və sən də bu əmrə tabesən. Sənin tabeçiliyinə verilmiş insanları kiçik görmək onlarla ədalətdən kənar davranmaq, ibadət ruhundan çıxmaqdır ki, bunun arxasınca narazılıqlar və səfalət gəlir. Konfutsi ağalığın idarəetmədən kənarlaşdırılmasına çağırırdı.

Bu mövqe ətraflı misallarla aydınlaşdırılır Lun Yüdə.

Konfutsi dedi:

- İnsan yüksək vəzifənin xiffətini çəkməməli, mərifətdə möhkəmlənmədiyinə kədərlənməlidir. İnsan başqaları tərəfindən tanınmadığına qüssələnməməlidir. Mərifətdə möhkəmlənməyə başlayınca, insanlar onun xəbərini alacaqlar.

Ən yüksək vəzifə - həqiqətin xidmətində olmaqdır. Qalan karyera fəaliyyəti - avaraçılıqdır bununla müqayisədə.

Ən parlaq şöhrət həqiqətə xidmətlə gəlir. Qalan məşhurluq - rüsvayçılıqdır bununla müqayisədə.

Konfutsi gənclərə nəyin üzərində işləmək lazım olduğunu göstərməyə çalışır. Siz mərifətiniz üzərində işləyin. Göyün sizin işinizdən xəbəri olacaq. Göyün sizə etibarı yaranınca isə insanlar da yaxınlaşacaq bir-bir.

Müəllim dedi:

- Çan! Mənim təlimim bir başlanğıca tabedir.

Cın Cı dedi:

- Bəli.

Konfutsi çıxanda tələbələri Cın Cıdan soruşdular:

- O nəyi nəzərdə tuturdu?

Cın Cı cavab verdi:

- Müəllimin yolu sədaqət və mərhəmət üzərindədir.

Hər hansı təlimi onun başlanğıcını bilənə qədər öyrənərlər. Baxmayaraq ki, filosoflar bu başlanğıcı elə birinci tanışlıqda təqdim edərlər, onu dərk etmək elə də asan olmur.

Hər hansı təlimin hikmət zənginliyi bir başlanğıcın şərhləri əsasında yaranır. Tələbələr şərhlərə aludə olarlar, körpələr gün işığını tutmağa cəhd edən təki.

Müəllimin yolu isə həqiqətə, ədalətə, xeyirə, gözəlliyə sədaqət və onunla birlikdə varlığı paylaşanlara mərhəmət üzərindədir. Başlanğıc da budur, son da.

Müəllim söylədi:

- Nəcib kişi ədalət tanıyar, balaca adam - qazanc.

İnsan zatən qazancdan yüksək dəyər tanımağa başladığı andan nəcibləşmə yoluna düşər.

Balaca adamın əlində olan qazancdır. Qazanc da balaca adamı əlində yaxşı tutub.

Konfutsi deyərdi:

- Mərifətli insana rast gələndə, ona çatmaq barədə düşünün. Mərifətsizə rast gələndə, öz içinizə boylanın.

Nəcibləşmək yolu - daim öyrənmək, düşünmək, götür-qoy etmək yoludur.

Mərifət barədə biliklərinin üfüqlərini, mərifətli adamlara rast gələndə, genişləndirmək imkanını yaxalamış olursan.

Mərifətsizliyindən ayrılmaq imkanlarını mərifətsizin davranışından hiddətlənərkən əhəmiyyətli dərəcədə artırmış olursan.

Müəllim dedi:

- Valideynlərə xidmət edərkən, onları yumşaq şəkildə öyrət. Qulaq asmadıqlarını görsən, hörmətini artır, öyrətməkdən də əl çəkmə. "Səni məyus etsələr, şikayətlənmə".

Öyrətmə təbliğat adlı eybəcərliklə əvəzləndi. Təbliğatın məqsədi sənin öyrənməyin deyil. O, uzaq hədəf olardı və sənin maraqlarına xidmət edərdi. Təbliğatın hədəfi vaxtındır və məqsədi də sən deyilsən. Səndən kiminsə partiyasının sayını artırmaq və təbliğatçının eqosunu məmnun etmək tələb olunur.

Öyrətmə xəzinəylə paylaşmaqdır. Qarşıdakı bunu anlamaya bilər, lakin sənin hər hərəkətindən həqiqi xəzinə tapmasının mərifəti bilinməlidir.

"Səni məyus etsələr, şikayətlənmə".

Müəllim deyərdi:

- Valideynlərin sağ olduğu müddətdə onlardan uzağa getmə. Gedəsi olsan, istiqamətini bildir.

Mərifətli övladın davranışı - xeyirin davranışıdır; bezdirici deyil, əlyetərdir. Ayrılanda onu harada tapmaq lazım olduğunu da açıq şəkildə bildirir. Yəni qapısı açıqdır daima.

Müəllim deyərdi:

- Əgər oğul atasının ölümündən sonra üç il onun yolunu dəyişməzsə, bunu övladlıq hörməti adlandırmaq olar.

Müəllimdən ölüm dərsini üç il təkrarlamaq tələbi.

Konfutsi deyərdi:

- Valideynlərin yaşını bilmək lazımdır; övlad üçün bunda həm sevinc, həm də kədər var.

Valideynlərin qocalması və ölməsini müşahidə etmək dolayısı ilə həyatı dərk etmək sevinci və kədəridir.

Göyün valideyn adlı lütfündən axıra qədər tam olaraq bəhrələnmək lazımdır. Adətən, insan valideynlərindən yalnız uşaqlıqda bəhrələnir. Konfutsiyə görə Qədim Çin mədəniyyəti bu bəhrələnməni ölümə qədər və ölümdən sonraya da aid edir.

Müəllim dedi:

- Qədimlər ehtiyatla danışardılar. Dediklərini yerinə yetirməyə biləcəklərindən ehtiyatlanardılar.

İnsanın cahilliyi ən çox vəd vermə məqamlarında bilinir. Əhəmiyyətli görünmək həvəsindən azad olanlar vədlərində ehtiyatlı olarlar.

Müəllim söylədi:

- Ehtiyatlı adam nadir hallarda pərt olur.

Pərtlik uyğunsuzluğun dərkidir.

Konfutsi deyərdi:

- Nəcib kişi ağır danışar, cəld görər.

Əməllərlə sözlər arasındakı əlaqəni möhkəmləndirməkdir nəciblik yoludur.

Sözlərlə əməllər arasındakı əlaqəni zəiflətmək siyasət yoludur; adamın ictimai statusu nə olur-olsun".

Konfutsi əmindir ki, dövlət ritual mərifəti ilə idarə olunmalıdır. İdarə etdiyin insanlar sənin yox, göyün əmrindədirlər və sən də bu əmrə tabesən. Sənin tabeçiliyinə verilmiş insanları kiçik görmək onlarla ədalətdən kənar davranmaq, ibadət ruhundan çıxmaqdır ki, bunun arxasınca narazılıqlar və səfalət gəlir. Konfutsi ağalığın idarəetmədən kənarlaşdırılmasına çağırırdı.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Su prosedurları

Qədim Romada xəstəliklərdən qurtulmaq üçün termal su vannaları qəbul edilirdi və həmin sağlamlaşdırıcı metoda sonralar SPA-sudan gələn sağlamlıq adı verilib. AZƏRTAC xəbər verir ki, SPA prosedurları bürünmə, hidroterapiya (su prosedurları) və termiki prosedur kimi üç qrupa bölünür.

Bürünmə bədənə müalicəvi və profilaktik qarışıqların yaxılması ilə həyata keçirilən prosedurdur. Dəniz məhsullarından istifadə etməklə həyata keçirilən prosedur talassoterapiya adlanır. Bürünmə proseduru zamanı yosun, müalicəvi palçıq, gil, yağ, şokolad və digər məhsullardan istifadə olunur.

Həyata keçirilmə mexanizminə görə həm isti, həm də soyuq bürünmə var. İsti bürünmə damarları genişləndirərək qan



dövranını yaxşılaşdırır, genişlənmiş dəri məsamələri vasitəsilə toksin və şlaklar orqanizmdən xaric olur. Soyuq bürünmədə isə damar mənfəzi daralır, limfa və qan toksinləri daxili ifrazat orqanlarına daşıyaraq orqanizmdən çıxarır. Onu yorğunluq, ödem, venaların skleroşlaşmasından sonrakı bərpa prosesində tətbiq edirlər. Həmin prosedur zamanı bədənə qarışıq yaxılaraq termoyorğana bürünülür və prosedurdan sonra yuyunulur.

Hidroterapiyanın duş və müalicəvi vanna növləri var. Duş su axının orqanizmə müxtəlif forma, temperatur və təzyiqdə təsirindən ibarət müalicə prosedurudur və iki cür olur. Şarko duşu təzyiq altında isti və soyuq suların növbələşməsindən ibarətdir və həmin prosedurun təsiri nəticəsində baş və onurğa beyninin fəaliyyəti stimullaşır, qan-damar sistemi və immunitet möhkəmlənir. Vişi duşu təsirinə görə güclü yağışı xatırladır. Duş hidroterapevtik masaj proseduru kimi çox idealdır.

Müalicəvi vannalar isə təkcə su ilə olanlar deyil. Soyuq və sərin su vannaları orqanizmə tonuslandırıcı təsir göstərir, ürək-damar sistemini möhkəmləndirir, maddələr mübadiləsini stimullaşdırır. Sudan başqa günəş və hava vannaları da var.

Termiki prosedurlarda təbii və süni istilik mənbələrindən istifadə olunur. Məsələn, isti su vannaları, hamam, sauna, qızdırıcı islatmalar, müalicəvi palçıqlar, infraqırmızı lampalar, parafin, yüksək tezlikli cərəyan və s.

Su orqanizm üçün sağlamlıq və gümrahlığı təmin edir. Bitki və yosunların ekstraktları bədənə təsir edərək onu möhkəmləndirir və sağlamlaşdırır, balzamlar isə orqanizmə tonuslandırıcı təsir göstərir. SPA prosedurları zamanı istifadə olunan aromatik yağlar dərini tonuslandıraraq əhvali-ruhiyyəni yaxşılaşdırır. Sauna və buxar kimi SPA prosedurları bədəndən şlakları və toksinləri çıxarır, ürək-damar, ürək-qan-damar, tənəffüs və sinir sistemi fəaliyyətini tənzimləyir. Dərman bitkiləri və kontras su vannaları kiçik çanaq oynaqları, böyrək və sidikçıxarıcı sistemə müsbət təsir göstərir.

SPA prosedurları sellülit zamanı, dərinin piqment ləkələrinin müalicə və profilaktikasında da istifadə olunur. Prosedurlar təkcə dəriyə və dərialtı toxumaya deyil, həmçinin bütövlükdə orqanizmə təsir edir, iş qabiliyyətini artırır, oynaqlarda ağrını azaldır.

## Kamerunlu futbolçu "Qalatasaray"dan getdi

"Qalatasaray"la müqaviləsi başa çatan Aurelyen Çedju komandadan ayrılıb. Qol.az-ın məlumatına görə, artıq kamerunlu müdafiəçinin yeni klubu da məlumdur. 31 yaşlı futbolçu digər İstanbul təmsilçisi "Başakşəhər"ə keçib. Klubun rəsmi saytı Jedju ilə 2+1 illik müqavilə imzalandığını yazıb. Qeyd edək ki, Kamerun millisinin üzvü 2013-cü ildən "Qalatasaray"da oynayır.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya fakültəsinin I kurs tələbəsi Dadaşlı Sübhanə Xanlar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Formula-1 Azərbaycan Qran-Prisi ərəfəsində şəhər sakinlərinin fasiləsiz hərəkəti təmin olunacaq




İyunun 23-25-də Bakıda təşkil olunacaq Formula-1 Azərbaycan Qran-Prisi zamanı şəhər sakinlərinin maneəsiz hərəkətini təmin etmək üçün trek ərazisində yerləşən daimi yeraltı keçidlər gün ərzində açıq olacaq. Bununla yanaşı, piyadalar trekin müəyyən yerlərində quraşdırılacaq müvəqqəti yerüstü keçidlərdən də istifadə edəcəklər. Müvəqqəti yerüstü keçidlər Azərbaycan prospekti ilə İstiqlaliyyət küçəsinin, həmçinin Xaqani ilə Rəşid Behbudov və Azadlıq prospekti ilə Xaqani küçəsinin kəsişmələrində yerləşəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri iyunun 5-də "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai deyib.

N.Arpadarai bildirib ki, Bakı şəhər halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər iyunun 17-də gecə saat 01:00-dan etibarən nəqliyyatın hərəkəti üçün qismən bağlı olacaq. Bütün nəqliyyatın hərəkəti iyunun 19-da gecə saat 01:00-da tamamilə dayandırılacaq və bu məhdudiyyət iyunun 27-də səhər saat 06:00-da aradan qaldırılacaq. Formula-1 şəhərciyinin yerləşdiyi Dənizkənarı Milli Parkın bir hissəsi - Azneft dairəsindən başlayaraq dəniz vağzalını əhatə edən ərazi iyunun 19-da gecə saat 01:00-dan etibarən nəqliyyatın hərəkəti üçün, iyunun 20-də saat 12:00-dan etibarən isə bu ərazilərdə yaşayan sakinlər üçün bağlı olacaq. Burada əhalinin girişinə qoyulmuş məhdudiyyət iyunun 26-da səhər saat 08:00-da aradan qaldırılacaq. Yarışa bileti olan azarkeşlər Dənizkənarı Milli Park ərazisinə iyunun 22-də saat 14:00-dan etibarən daxil ola biləcəklər. Bu günlər ərzində şəhər sakinləri sadəcə "Park Bulvar" alış-veriş mərkəzindən istifadə edə biləcəklər.

"Nəqliyyatın hərəkətinin qadağan olunduğu ərazilər 3 zonaya ayrılır. Birinci zonaya trekin əhatə etdiyi İçərişəhər (1), ikinci zonaya trekin əhatə etdiyi Azadlıq meydanı və onun yaxınlığında yerləşən digər ərazilər (2) aiddir. Üçüncü zona BMT-nin 50 illiyi küçəsini (3) əhatə edir. Bu ərazilərdə yaşayan sakinlərə və işgüzar fəaliyyətlə məşğul olanlara həmin zonalara müvafiq rəqəmlərlə ifadə olunan və yaşayış yerinə giriş icazəsini göstərən nişanlar əlaqədar qurumlar tərəfindən iyunun 9-dan başlayaraq, iyunun 19-dək təqdim olunacaq. Verilən nişanlar avtomobillərin ön şüşələrinə yapışdırılmalıdır. Nişan sahibləri ancaq nişanın aid olduğu zonaya daxil ola biləcəklər", - deyə Nigar Arpadarai əlavə edib.

Qeyd edək ki, birinci və ikinci zonalarda nəqliyyatın hərəkətinə ancaq gecə vaxtı 00:00-dan 06:00-dək icazə veriləcək. Üçüncü zonada isə nəqliyyatın hərəkətinə gün ərzində icazə veriləcək və müvafiq nişana sahib olan avtomobillər istənilən saatda bu zonaya daxil ola biləcəklər. Birinci zonaya giriş Azneft dairəsi, ikinci zonaya giriş Rəşid Behbudov küçəsi və üçüncü zonaya giriş Lermontov küçəsi (Şəlalələr parkı) tərəfdən olacaq. Birinci zonada yaşayan və müvafiq nişana sahib şəhər sakinləri Qış Parkında yerləşən yeraltı parklanma sahəsindən pulsuz şəkildə istifadə edə biləcəklər.

Birinci zonaya aid nişanlar İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən, ikinci və üçüncü zonalara aid nişanlar isə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təqdim olunacaq. Birinci zonaya dair ətraflı məlumat almaq üçün 497-52-46 telefon nömrəsi ilə əlaqə saxlamaq mümkündür. Digər iki zonaya aid ətraflı məlumatı isə 492-98-14 və 492-09-02 telefon nömrələri ilə əlaqə saxlamaqla Bakı Şəhər İcra Hakimiyyətindən almaq olar.

## Meneceri açıqladı: "Arda Turan 2020-ci ilədək "Barselona"dır"



Türkiyə millisinin və "Barselona" klubunun yarımmüdafiəçisi Arda Turanın meneceri Əhmət Bulud son günlər futbolçunun kataloniyalıların heyətindən ayrılacağı ilə bağlı mətbuatda gedən xəbərlərə münasibət bildirib.

Arda Turanın "Barselona" klubu ilə 2020-ci il iyunun 30-dək müqaviləsinin olduğunu vurğulayan Əhməd Bulud deyib: "Arda Turan heç bir kluba getməyəcək. "Barselona" klubunun rəhbərliyi də ondan məmnundur. Bizim heç bir komanda ilə görüşümüz olmayıb. Bu xəbərlər Ardanı və "Barselona" rəhbərliyini narahat edir. Arda Turan 2020-ci ilədək "Barselona"dır".

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500